Əlixan Musayev



# MÜSƏLMANIN BİR GÜNÜ

**Müəllif:**
Əlixan Musayev

**Redaktorlar:**
M. Qarayev
A. Salehli
M. Kərim
F. Allahverdiyev
E. Rüstəmov

# Mündəricat

Müqəddimə ................................................ 5
Gündəlik həyatımız:
Yuxudan oyandıqda edilən zikrlər ................................................ 7
Paltar geyindikdə ................................................ 10
Ayaq yoluna getdikdə ................................................ 10
Dəstəmaz aldıqda ................................................ 10
Gündəlik namazlardan sonrakı zikrlər ................................................ 12
Səhər zikrləri ................................................ 16
Duha namazı ................................................ 21
Quran oxumaq ədəbi ................................................ 22
Yemək-içmək ədəbləri ................................................ 23
Bayıra çıxdıqda ediləcək əməllər ................................................ 27
Minik vasitəsinə mindikdə ................................................ 28
Gün ərzində ediləcək yaxşı əməllər ................................................ 29
Məscidə gedəndə, ora daxil olanda və oradan çıxanda edilənlər ..... 30
Gündəlik edilən fəzilətli zikrlər ................................................ 32
Axşam zikrləri ................................................ 37
Evə gəldikdə ediləcək əməllər ................................................ 42
Yatmazdan əvvəl edilən zikrlər ................................................ 43
Gecə namazı ................................................ 49
Gündəlik yerinə yetirilən əməllərin ən fəzilətlisi ................................................ 51
İxlassız edilən əməl qəbul olunmur! ................................................ 53
Quran və Sünnədən seçilmiş dualar ................................................ 56
Son söz ................................................ 64

﴿ إِنَّ ٱلَّذِينَ ءَامَنُوا۟ وَعَمِلُوا۟ ٱلصَّٰلِحَٰتِ وَأَخْبَتُوٓا۟ إِلَىٰ رَبِّهِمْ أُو۟لَٰٓئِكَ
أَصْحَٰبُ ٱلْجَنَّةِ ۖ هُمْ فِيهَا خَٰلِدُونَ ﴾

**“Heç şübhəsiz ki, iman gətirib saleh əməllər edən və Rəbbinə boyun əyən kimsələr, məhz onlar Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar.”**

*Quran, “Hud” surəsi, 23-cü ayə.*

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

# Müqəddimə

Həqiqətən, həmd-sənalar yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərif edir, Ondan kömək istəyir, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməsini diləyir, nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona sığınırıq. Allah kimə hidayət versə, o, haqq yolda olar. Azmaq istəyəni də haqq yoldan azdırsa, onu bu yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

Dəyərli oxucular! Bu kiçik həcmli kitabı yazmaqda məqsədimiz hər bir müsəlmana Muhəmməd Peyğəmbərin ﷺ gündəlik və davamlı olaraq yerinə yetirdiyi əməlləri xatırlatmaqdır. Saleh əməli davamlı yerinə yetirmək əməllərin ən yaxşısı hesab olunur. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Əməllər arasında Allahın ən çox xoşuna gələni, az olsa da, davamlı olanıdır."**[1]

Allahın sevgisini və öz günahlarının bağışlanmasını istəyən müsəlman Peyğəmbərin ﷺ yolundan kənara çıxmamalıdır. Bu xüsusda Quranda bunlar buyurulur:

**"De: "Əgər siz Allahı sevirsinizsə, mənim yolumla gedin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, rəhmlidir."**[2]

**"Bu, Mənim düz yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Yoxsa, *o yollar* sizi Allahın yolundan uzaqlaşdırar."**[3]

---

[1] "Səhih əl-Buxari", 6465; "Səhih Muslim", 783.

[2] "Ali-İmran" surəsi, 31.

[3] "əl-Ənam" surəsi, 153.

Möhtərəm müsəlmanlar!

Əgər biz ömrümüzün sonunadək haqq yolda sabit qalmağımızı, Allahın rizasını qazanmağımızı, Qiyamət günü Peyğəmbərlə ﷺ birlikdə həşr edilməyimizi və Cənnətdə ona yaxın olmağımızı istəyiriksə, onun etdiyi saleh əməlləri davamlı olaraq yerinə yetirməliyik.

Bu kitabda biz sizə Peyğəmbərin ﷺ gündəlik yerinə yetirdiyi əməlləri ardıcıl şəkildə qeyd etməyə çalışmışıq. Kitab oxucunu yormasın deyə, qeyd etdiyimiz məlumatları təsdiqləyən səhih hədislərin mətnlərini kitabda nəql etməyib, sadəcə o hədislərin mənbələrini haşiyələrdə göstərmişik. Belə etmişik ki, müsəlmanlar kitabı rahatlıqla oxuyub əməl edə bilsinlər, yazdıqlarımızın doğruluğunu dəqiqləşdirmək istəyən kəs isə həmin mənbələrə baxsın və məlumatların mötəbər hədislərə söykəndiyini görsün. Yalnız bir neçə əməlin fəzilətinə dair bəzi hədisləri haşiyədə qeyd etmişik ki, oxucu etdiyi əməlin dəyərini bilsin.

Xüsusilə qeyd edək ki, bu kitabda nəql etdiyimiz ayələri, zikrləri və duaları imkan daxilində ərəbcə oxumaq lazımdır.

Allahdan istəyimiz budur ki, bu kitabı həm indiki, həm də gələcək nəsillər üçün bərəkətli və faydalı etsin.

Ümid edirik ki, bu kitab, onu oxuyan hər kəsin masaüstü kitablarından biri olacaq.

Əzəmətli Ərşin Rəbbi olan Qüdrətli Allahdan, Onun gözəl adları və uca sifətləri ilə diləyirik ki, bizi Özünün sevdiyi və razı qaldığı saleh əməlləri yerinə yetirməyə və haqqı deməyə müvəffəq etsin! Həqiqətən də, Allah hər şeyi eşidəndir, duaları qəbul edəndir.

Peyğəmbərimizə, onun əhli-beytinə, onun səhabələrinə və Qiyamət gününədək onların ardıcıllarına Allahın salavatı və salamı olsun!

*Əlixan Musayev*
*01.01.2025*

# Gündəlik həyatımız

**Möhtərəm müsəlman!**

– İstər gecə namazı[1], istərsə də sübh namazına[2] qalxmaq üçün yuxudan oyandıqda, aşağıdakı zikrləri et:

((لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، سُبْحَانَ اللهِ، وَالْحَمْدُ للهِ، وَلاَ إِلَهَ إِلاَّ اللهُ، وَاللهُ أَكْبَرُ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ الْعَلِيِّ الْعَظِيمِ، رَبِّ اغْفِرْ لِي))

"Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Onadır, O, hər şeyə Qadirdir. Allah pak və müqəddəsdir. Həmd Allaha məxsusdur. Allahdan başqa *ibadətə layiq* məbud yoxdur. Allah ən Böyükdür. Qüdrət və güc yalnız Uca və Böyük Allaha aiddir! Ey Rəbbim, məni bağışla!"[3]

((الْحَمْدُ لِلَّهِ الَّذِي أَحْيَانَا بَعْدَ مَا أَمَاتَنَا وَإِلَيْهِ النُّشُورُ))

"Bizi öldürdükdən sonra diriltdən Allaha həmd olsun. *Ölüb dirildikdən sonra isə* qayıdış Onadır!"[4]

((الْحَمْدُ لِلَّهِ الَّذِي عَافَانِي فِي جَسَدِي، وَرَدَّ عَلَيَّ رُوحِي، وَأَذِنَ لِي بِذِكْرِهِ))

"Bədənimə sağlamlıq verən, ruhumu mənə qaytaran və mənə Onu yad etməyə izin verən Allaha həmd olsun!"[5]

---

[1] Bax: "əs-Səcdə" surəsi, 16; "əl-İsra" surəsi, 79; "əl-Muzzəmmil" surəsi, 1-6 və 20; "əl-İnsan" surəsi, 26.

[2] "Hud" surəsi, 114; "əl-İsra" surəsi, 78.

[3] "Səhih əl-Buxari", 1154. Bu zikri edən adamın duası və namazı qəbul olar.

[4] "Səhih əl-Buxari", 6312; "Səhih Muslim", 7062.

[5] "Sunən ət-Tirmizi", 3401; "Səhih əl-Cami", 716.

Rəvayət edilir ki,[1] Peyğəmbər ﷺ yuxudan oyandıqda gözlərini ovxalayıb yuxusunu dağıtdıqdan sonra "Ali-İmran" surəsinin son ayələrini oxuyardı:

﴿إِنَّ فِي خَلْقِ السَّمَاوَاتِ وَالْأَرْضِ وَاخْتِلَافِ اللَّيْلِ وَالنَّهَارِ لَآيَاتٍ لِّأُولِي الْأَلْبَابِ ١٩٠
الَّذِينَ يَذْكُرُونَ اللَّهَ قِيَامًا وَقُعُودًا وَعَلَىٰ جُنُوبِهِمْ وَيَتَفَكَّرُونَ فِي خَلْقِ السَّمَاوَاتِ وَالْأَرْضِ رَبَّنَا
مَا خَلَقْتَ هَٰذَا بَاطِلًا سُبْحَانَكَ فَقِنَا عَذَابَ النَّارِ ١٩١ رَبَّنَا إِنَّكَ مَن تُدْخِلِ النَّارَ فَقَدْ أَخْزَيْتَهُ ۖ وَمَا
لِلظَّالِمِينَ مِنْ أَنصَارٍ ١٩٢ رَّبَّنَا إِنَّنَا سَمِعْنَا مُنَادِيًا يُنَادِي لِلْإِيمَانِ أَنْ آمِنُوا بِرَبِّكُمْ فَآمَنَّا ۚ
رَبَّنَا فَاغْفِرْ لَنَا ذُنُوبَنَا وَكَفِّرْ عَنَّا سَيِّئَاتِنَا وَتَوَفَّنَا مَعَ الْأَبْرَارِ ١٩٣ رَبَّنَا وَآتِنَا مَا وَعَدتَّنَا
عَلَىٰ رُسُلِكَ وَلَا تُخْزِنَا يَوْمَ الْقِيَامَةِ ۗ إِنَّكَ لَا تُخْلِفُ الْمِيعَادَ ١٩٤ فَاسْتَجَابَ لَهُمْ رَبُّهُمْ أَنِّي لَا أُضِيعُ
عَمَلَ عَامِلٍ مِّنكُم مِّن ذَكَرٍ أَوْ أُنثَىٰ ۖ بَعْضُكُم مِّن بَعْضٍ ۖ فَالَّذِينَ هَاجَرُوا وَأُخْرِجُوا مِن دِيَارِهِمْ
وَأُوذُوا فِي سَبِيلِي وَقَاتَلُوا وَقُتِلُوا لَأُكَفِّرَنَّ عَنْهُمْ سَيِّئَاتِهِمْ وَلَأُدْخِلَنَّهُمْ جَنَّاتٍ تَجْرِي مِن
تَحْتِهَا الْأَنْهَارُ ثَوَابًا مِّنْ عِندِ اللَّهِ ۗ وَاللَّهُ عِندَهُ حُسْنُ الثَّوَابِ ١٩٥ لَا يَغُرَّنَّكَ تَقَلُّبُ الَّذِينَ كَفَرُوا
فِي الْبِلَادِ ١٩٦ مَتَاعٌ قَلِيلٌ ثُمَّ مَأْوَاهُمْ جَهَنَّمُ ۚ وَبِئْسَ الْمِهَادُ ١٩٧ لَٰكِنِ الَّذِينَ اتَّقَوْا رَبَّهُمْ لَهُمْ
جَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا نُزُلًا مِّنْ عِندِ اللَّهِ ۗ وَمَا عِندَ اللَّهِ خَيْرٌ لِّلْأَبْرَارِ
١٩٨ وَإِنَّ مِنْ أَهْلِ الْكِتَابِ لَمَن يُؤْمِنُ بِاللَّهِ وَمَا أُنزِلَ إِلَيْكُمْ وَمَا أُنزِلَ إِلَيْهِمْ خَاشِعِينَ
لِلَّهِ لَا يَشْتَرُونَ بِآيَاتِ اللَّهِ ثَمَنًا قَلِيلًا ۗ أُولَٰئِكَ لَهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ ۗ إِنَّ اللَّهَ
سَرِيعُ الْحِسَابِ ١٩٩ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اصْبِرُوا وَصَابِرُوا وَرَابِطُوا وَاتَّقُوا اللَّهَ
لَعَلَّكُمْ تُفْلِحُونَ ٢٠٠﴾

**190. Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır.**

---

[1] "Səhih əl-Buxari", 183.

**191. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünər *və deyərlər:* "Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi Cəhənnəm əzabından qoru!**

**192. Ey Rəbbimiz! Sən Oda saldığın kəsi, əlbəttə, rəzil etmiş olarsan. Zalımların heç bir köməkçisi olmaz.**

**193. Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə iman gətirin!"– deyə imana çağıran bir çağırışçını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı yaxşılarla birgə al!**

**194. Ey Rəbbimiz! Öz elçilərinin vasitəsi ilə vəd etdiklərini bizə ver və Qiyamət günü bizi rəzil etmə! Şübhəsiz ki, Sən vədinə xilaf çıxmazsan!"**

**195. Rəbbi də onlara *belə* cavab verdi: "Mən, sizlərdən *yaxşı* işlər görən – istər kişi, istərsə də qadın olsun, – heç bir kəsin əməyini puç etmərəm. Siz bir-birinizdənsiniz. Hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin, əlbəttə, təqsirlərindən keçəcək və onları *ağacları və qəsrləri* altından çaylar axan cənnətlərə daxil edəcəyəm. *Bu,* Allah tərəfindən bir mükafatdır. Gözəl mükafat məhz Allah yanındadır.**

**196. Qoy kafirlərin *rifah içində* diyarbədiyar gəzib dolaşması səni aldatmasın!**

**197. Bu, az bir mənfəətdir. Sonra isə onların gedəcəkləri yer Cəhənnəmdir. Ora nə pis yataqdır!**

**198. Fəqət, öz Rəbbindən qorxanlar üçün Allahdan bir ziyafət olaraq, *ağacları və qəsrləri* altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər vardır. Allah yanında olan *nemətlər* yaxşı əməl sahibləri üçün daha xeyirlidir.**

**199. Həqiqətən, Kitab əhlindən elələri də vardır ki, Allaha müti olaraq həm Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə iman gətirər, Allahın ayələrini ucuz qiymətə satmazlar. Məhz onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir."**

**200. Ey iman gətirənlər! Səbir edin, *düşmən qarşısında* dözümlü olun, daim keşikdə durun və Allahdan qorxun ki, bəlkə nicat tapasınız!**

– Qalxıb paltarını geyindikdə sağ tərəfdən başla və bu zikri et:

((الْحَمْدُ لِلَّهِ الَّذِى كَسَانِى هَذَا الثَّوْبَ وَرَزَقَنِيهِ مِنْ غَيْرِ حَوْلٍ مِنِّى وَلاَ قُوَّةٍ))

“Bu paltarı mənə geyindirən, özüm heç bir qüdrət və güc sərf etmədən onu mənə bəxş edən Allaha həmd olsun!”[1]

– Sonra qalxıb ayaqyoluna getsən, sol ayaqla ayaqyoluna daxil ol və ora daxil olmazdan əvvəl bu duanı oxu:

((بِسْمِ اللهِ، اللَّهُمَّ إِنِّى أَعُوذُ بِكَ مِنَ الْخُبُثِ وَالْخَبَائِثِ))

“Allahın adı ilə![2] Allahım, erkək və dişi xəbislərdən (cinlərdən) Sənə sığınıram!”[3]

– Ayaqyolundan sağ ayaqla çıx və de:

((غُفْرَانَكَ))

*“Allahım,* məni bağışla!”[4]

– Sonra gedib dəstəmaz aldıqda, onu bu zikrlə başla:

((بِسْمِ اللهِ))

“Bismilləh / Allahın adı ilə![5]”[6]

– Dəstəmazı bitirdikdən sonra aşağıdakı duaları oxu:

((أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ، اللَّهُمَّ اجْعَلْنِى مِنَ التَّوَّابِينَ وَاجْعَلْنِى مِنَ الْمُتَطَهِّرِينَ))

---

[1] “Sunən Əbu Davud”, 4023; “Səhih əl-Cami”, 6086. Bu zikri edən kimsənin keçmiş günahları bağışlanar.

[2] “Sunən ət-Tirmizi”, 606; “Səhih əl-Cami”, 3611. Bu kəlməni deyəndə, cinlərin gözləri ilə insanların ayıb yerləri arasına örtük çəkilir.

[3] “Səhih əl-Buxari”, 142; “Səhih Muslim”, 831.

[4] “Sunən Əbu Davud”, 30; “Səhih əl-Ədəbul-Mufrad”, 693.

[5] Əksər alimlərin rəyinə görə “Bismilləh!” demək müstəhəbdir.

[6] “Sunən Əbu Davud”, 101; “Səhih əl-Cami”, 7514.

"Mən şahidlik edirəm ki, Allahdan başqa *ibadətə layiq* məbud yoxdur və *şahidlik edirəm ki,* Muhəmməd Allahın qulu və rəsuludur. Allahım, məni tövbə edənlərdən və təmizlənənlərdən et!"[1]

((سُبْحَانَكَ اللهُمَّ وَبِحَمْدِكَ أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ أَنْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ))

"Allahım, Sən pak və müqəddəssən! Həmd Sənə məxsusdur! Mən şahidlik edirəm ki, Səndən başqa *ibadətə layiq* ilah yoxdur. Mən Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm!"[2]

**Qeyd.** Ayaqyoluna daxil olduqda və oradan çıxdıqda, habelə dəstəmaz almağa başladıqda və dəstəmazdan sonra oxunan zikrlər təkcə səhərə deyil, hər zamana aiddir.

– Əgər məscidə getməyib, fəcr (sübh) namazını evdə qılmalı olsan, azan oxu[3]; azandan sonra əvvəlcə Peyğəmbərə ﷺ salavat de[4], ardından da bu duanı oxu:

((اللَّهُمَّ رَبَّ هَذِهِ الدَّعْوَةِ التَّامَّةِ، وَالصَّلاَةِ الْقَائِمَةِ، آتِ مُحَمَّدًا الْوَسِيلَةَ وَالْفَضِيلَةَ، وَابْعَثْهُ مَقَامًا مَحْمُودًا الَّذِي وَعَدْتَهُ))

"Bu tam dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım! Muhəmmədə vasitəçilik haqqı və fəzilət ver. Onu vəd etdiyin təriflənən məqama çatdır."[5]

---

[1] **"Kim dəstəmaz aldıqdan sonra bu duanı desə, Cənnətin səkkiz qapısı onun üçün açılar və o, hansından istəsə,** ***oradan Cənnətə*** **daxil olar"** ("Səhih Muslim", 553; "Sunən ət-Tirmizi", 96).

[2] **"Kim dəstəmaz aldıqdan sonra bu duanı desə, bu, nazik dəriyə yazılar, sonra üzərinə möhür vurular və bu möhür Qiyamət gününədək sındırılmaz"** ("Mustədrək əl-Hakim", 1/564; "Silsilə əl-Əhadis əs-Səhihə", 2333).

[3] **Qeyd.** O namaz üçün oxunan azanı eşitmisənsə, azan verməyə gərək yoxdur.

[4] "Səhih Muslim", 1/288.

[5] Peyğəmbər ﷺ demişdir: **"Hər kim azanı eşitdikdən sonra bu duanı desə, Qiyamət günü mənim şəfaətimə qovuşar".** ("Səhih əl-Buxari", 614).

– Azan və iqamə arasında istədiyin qədər dua et, çünki: **“Azan və iqamə arasında edilən dua cavabsız qalmır.”**[1]

– Sonra iki rükət sünnə (ratibə) namazını qıl.[2] Qeyd edək ki, sünnə namazını evdə qılmaq daha əfzəldir.[3]

Qadın üçün isə nəinki sünnə, hətta fərz namazlarını da evdə qılması daha əfzəldir.[4] Lakin əgər qadın namaz qılmaq üçün məscidə getmək istəsə, ona mane olmaq olmaz.[5]

– Bir müddət (təxminən 20-30 dəqiqə) gözlədikdən sonra sübh namazını qıl.[6] Əlbəttə ki, imkan daxilində bu namazı camaatla birlikdə qılmaq vacib[7] və daha əfzəldir.[8]

– Namazı bitirdikdən sonra de:

((أَسْتَغْفِرُ اللهَ، أَسْتَغْفِرُ اللهَ، أَسْتَغْفِرُ اللهَ، اللَّهُمَّ أَنْتَ السَّلاَمُ وَمِنْكَ السَّلاَمُ، تَبَارَكْتَ يَا ذَا الْجَلاَلِ وَالإِكْرَامِ))

---

[1] “Sunən Əbu Davud”, 521; “Sunən ət-Tirmizi”, 210; “Səhih Əbu Davud”, 3/14.

[2] **“Sübh namazından əvvəl qılınan iki rükət ratibə namazı, dünya və onun içindəkilərdən daha xeyirlidir”.** (Səhih Muslim, 1688).

[3] **“Namazlarınızın bir qismini evlərinizdə qılın və evlərinizi qəbirlərə çevirməyin”.** (“Səhih əl-Buxari”, 432; “Səhih Muslim”, 777); **“Ey insanlar, evlərinizdə namaz qılın. Çünki fərz namazlarından başqa ən fəzilətli namaz insanın öz evində qıldığı namazdır”** (“Səhih əl-Buxari”, 731; “Səhih Muslim”, 781).

[4] “Sunən Əbu Davud”, 570; “Səhih əl-Cami”, 3833.

[5] “Səhih əl-Buxari”, 865; “Səhih Muslim”, 442.

[6] Qüdsi hədisdə Uca Allah buyurur: **“Ey Adəm oğlu, gündüzün əvvəlində dörd rükət namaz qıl, axırında *başına gələ biləcək bəlalardan* səni qoruyum”.** (“Sunən ət-Tirmizi”, 475; “Səhih əl-Cami”, 4339). İslam alimləri bu dörd rükətin sübh namazı və onun sünnəti olduğunu söyləmişlər.

[7] Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Əgər insanlar işa və sübh namazlarını *camaatla birgə* qılmağın *nə qədər fəzilətli* olduğunu bilsəydilər, bu namazları qılmaq üçün iməkləyə-iməkləyə də olsa *məscidə* gələrdilər”** (“Səhih əl-Buxari”, 615; “Səhih Muslim”, 437).

[8] **“Birinizin camaatla qıldığı namaz, fərdi şəkildə qıldığı namazdan iyirmi yeddi dərəcə üstündür”** (“Səhih əl-Buxari”, 645; “Səhih Muslim”, 650).

“Allahdan bağışlanma diləyirəm! (*üç dəfə*). Allahım, əs-Səlam Sənsən və əmin-amanlıq Səndəndir. Ey əzəmət və ehtiram sahibi, Sənin xeyir və bərəkətin boldur!”[1]

Təşəhhüddə oturduğun vəziyyəti dəyişmədən on dəfə bu zikri et:[2]

((لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، يُحْيِي وَيُمِيتُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ))

“Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Ona məxsusdur, dirildən də, öldürən də Odur və O, hər şeyə Qadirdir!”[3]

Sonra aşağıdakı zikrləri et:

(( لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَلاَ نَعْبُدُ إِلاَّ إِيَّاهُ لَهُ النِّعْمَةُ وَلَهُ الْفَضْلُ وَلَهُ الثَّنَاءُ الْحَسَنُ لاَ إِلَهَ إِلاَّ اللَّهُ مُخْلِصِينَ لَهُ الدِّينَ وَلَوْ كَرِهَ الْكَافِرُونَ ))

“Allahdan başqa *ibadətə layiq* ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O, hər şeyə Qadirdir! Qüdrət və güc yalnız Allahdadır! Allahdan başqa *ibadətə layiq* ilah yoxdur. Biz yalnız Ona ibadət edirik. Nemət Onundur, lütf Onundur və gözəl tərif Onadır. Allahdan başqa *ibadətə layiq* ilah yoxdur. Kafirlərə xoş gəlməsə də, biz dini yalnız Ona məxsus edirik!”[4]

---

[1] “Səhih Muslim”, 591.

[2] Bu zikr yalnız sübh və məğrib namazlarına aiddir.

[3] **“Kim bu zikri on dəfə desə, ona hər birinə görə on savab yazılar, onun on günahı silinər və onun üçün on dərəcə yüksələr. Üstəlik, bu kəlmələr onu hər bir xoşagəlməz şeydən və qovulmuş şeytandan qoruyar. Habelə, şirkdən başqa heç bir günah onun əməlini puç etməz və o, əməl baxımından ən fəzilətli insanlardan sayılar. Yalnız onun dediyindən daha xeyirlisini deyən kimsələr istisnadır.”** (“Musnəd İmam Əhməd”, 5/420; “Silsilə əl-Əhadis əs-Səhihə”, 114.)

[4] “Səhih Muslim”, 594.

((لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ
اللَّهُمَّ لاَ مَانِعَ لِمَا أَعْطَيْتَ وَلاَ مُعْطِيَ لِمَا مَنَعْتَ وَلاَ يَنْفَعُ ذَا الْجَدِّ مِنْكَ الْجَدُّ))

"Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Ona məxsusdur və O, hər şeyə Qadirdir! Allahım, Sənin *nemət* verdiyinə mane olacaq, mane olduğuna da *nemət* verəcək *bir kəs* yoxdur. Heç bir hörmət sahibinə Sənin yanında hörməti fayda verməz!"[1]

Otuz üç dəfə "Subhanəllah!", otuz üç dəfə "Əlhəmdulilləh!" və otuz üç dəfə "Allahu Əkbər!" de, axırda da bir dəfə bu zikri et:

((لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ))

"Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Ona məxsusdur və O, hər şeyə Qadirdir!"[2]

Sonra "əl-İxlas", "əl-Fələq", "ən-Nas" surələrinin hər birini bir dəfə[3], habelə "Kürsü" ayəsini ("əl-Bəqərə" surəsi, 255) də bir dəfə oxu:[4]

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

﴿قُلْ هُوَ ٱللَّهُ أَحَدٌ ﴿١﴾ ٱللَّهُ ٱلصَّمَدُ ﴿٢﴾ لَمْ يَلِدْ وَلَمْ يُولَدْ ﴿٣﴾ وَلَمْ يَكُن لَّهُۥ كُفُوًا أَحَدٌۢ ﴿٤﴾﴾

---

[1] "Səhih əl-Buxari", 844; "Səhih Muslim", 593.

[2] Bu zikri edən kimsənin günahları dəniz köpükləri qədər olsa belə bağışlanar. ("Səhih Muslim", 1352).

[3] "Sunən Əbu Davud", 1523; "Silsilə əl-Əhadis əs-Səhihə", 1514.

[4] **"Kim hər vacib namazdan sonra "Kürsü" ayəsini oxusa, onun Cənnətə girməyinin qarşısında yalnız ölümü dura bilər". (**"Amələl-Yovm vəl-Leylə", İbn Sunni, 121; "Səhih əl-Cami", 6464).

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

**“De: “O Allah Təkdir! Allah Möhtac deyildir. O, nə doğub, nə də doğulub, Onun bənzəri də yoxdur.”**

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

﴿قُلۡ أَعُوذُ بِرَبِّ ٱلۡفَلَقِ ١ مِن شَرِّ مَا خَلَقَ ٢ وَمِن شَرِّ غَاسِقٍ إِذَا وَقَبَ ٣ وَمِن
شَرِّ ٱلنَّفَّٰثَٰتِ فِي ٱلۡعُقَدِ ٤ وَمِن شَرِّ حَاسِدٍ إِذَا حَسَدَ ٥﴾

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

**“De: “Sığınıram sübhün Rəbbinə! Xəlq etdiklərinin şərindən, çökən zülmətin şərindən, düyünlərə üfürən *cadugər* qadınların şərindən və həsəd apardığı zaman paxılın şərindən!”**

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

﴿قُلۡ أَعُوذُ بِرَبِّ ٱلنَّاسِ ١ مَلِكِ ٱلنَّاسِ ٢ إِلَٰهِ ٱلنَّاسِ ٣ مِن شَرِّ ٱلۡوَسۡوَاسِ
ٱلۡخَنَّاسِ ٤ ٱلَّذِي يُوَسۡوِسُ فِي صُدُورِ ٱلنَّاسِ ٥ مِنَ ٱلۡجِنَّةِ وَٱلنَّاسِ ٦﴾

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

**“De: “Sığınıram insanların Rəbbinə, insanların Hökmdarına, insanların İlahına! Vəsvəsə verənin, *Allahın adı çəkiləndə isə hövlündən* geri çəkilən *şeytanın* şərindən. *O şeytan* ki, insanların kökslərinə vəsvəsə salır, cinlərdən də *olur*, insanlardan da!”**

﴿ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَ ٱلۡحَيُّ ٱلۡقَيُّومُۚ لَا تَأۡخُذُهُۥ سِنَةٞ وَلَا نَوۡمٞۚ لَّهُۥ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَمَا فِي
ٱلۡأَرۡضِۗ مَن ذَا ٱلَّذِي يَشۡفَعُ عِندَهُۥٓ إِلَّا بِإِذۡنِهِۦۚ يَعۡلَمُ مَا بَيۡنَ أَيۡدِيهِمۡ وَمَا خَلۡفَهُمۡۖ وَلَا
يُحِيطُونَ بِشَيۡءٖ مِّنۡ عِلۡمِهِۦٓ إِلَّا بِمَا شَآءَۚ وَسِعَ كُرۡسِيُّهُ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضَۖ وَلَا يَـُٔودُهُۥ حِفۡظُهُمَاۚ
وَهُوَ ٱلۡعَلِيُّ ٱلۡعَظِيمُ ٢٥٥﴾

**“Allah Özündən başqa *haqq* məbud olmayandır, *əbədi* Yaşayandır, *bütün yaratdıqlarının* Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. *Allahın* izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, *qullarının* gələcəyini və keçmişini bilir. Onlar *Allahın* elmindən Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Əzəmətlidir.”**

Sonra bu duanı oxu:[1]

((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ عِلْمًا نَافِعًا، وَرِزْقًا طَيِّبًا، وَعَمَلاً مُتَقَبَّلاً))

“Allahım, Səndən faydalı elm, təmiz ruzi və qəbul olunan əməl diləyirəm!”[2]

– Namazdan sonrakı zikrləri bitirdikdən sonra səhər zikrlərini[3] et.

Səhər zikrləri aşağıdakılardır:

“əl-İxlas”, “əl-Fələq” və “ən-Nas” surələrinin hər birini üç dəfə[4], ardından da “Kürsü” ayəsini bir dəfə oxu:[5]

Sonra bu zikrləri et:

---

[1] Bu dua yalnız sübh namazına aiddir.

[2] “Sunən İbn Macə”, 925; “Silsilə əl-Əhadis əs-Səhihə”, 114.

[3] Peyğəmbər ﷺ demişdir: **“Mənim üçün sübh namazından sonra günəş çıxanadək Allahı zikr edən camaatla oturmaq, İsmail övladından dörd qulu azad etməkdən daha sevimlidir. Həmçinin, əsr namazından günəş batanadək Allahı zikr edən camaatla oturmaq mənim üçün dörd qul azad etməkdən daha sevimlidir.”** (“Sunən Əbu Davud”, 3667; “Səhih Əbu Davud”, 2/698”).

[4] **“Kim bu surələri səhər-axşam üç dəfə oxusa, onlar onun hər bir *şərdən* qorunması üçün kifayət edər.”** (“Sunən Əbu Davud”, 5082; “Səhih əl-Cami”, 4406).

[5] **“Kim bunu səhər desə, axşamadək, axşam desə, səhərədək cinlərdən qorunmuş olar”** (“Mustədrək əl-Hakim”, 1/562; “Səhih ət-Tərğib vət-Tərhib”, 1/273).

((أَصْبَحْنَا وَ أَصْبَحَ الْمُلْكُ للهِ، وَالْحَمْدُ للهِ، لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، رَبِّ أَسْأَلُكَ خَيْرَ مَا فِي هَذَا الْيَوْمِ وَخَيْرَ مَا بَعْدَهُ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا فِي هَذَا الْيَوْمِ وَشَرِّ مَا بَعْدَهُ، رَبِّ أَعُوذُ بِكَ مِنَ الْكَسَلِ، وَسُوءِ الْكِبَرِ، رَبِّ أَعُوذُ بِكَ مِنْ عَذَابٍ فِي النَّارِ وَعَذَابٍ فِي الْقَبْرِ))

“Səhərə çıxdıq, mülk də Allahın olaraq səhərə çıxdı. Həmd Allaha məxsusdur! Allahdan başqa *ibadətə layiq* ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir! Ey Rəbbim! Səndən bu günün xeyrini və bundan sonrakı xeyri diləyirəm. Bu günün şərindən və bundan sonrakı şərdən Sənə sığınıram. Ey Rəbbim! Tənbəllikdən və pis qocalıqdan Sənə sığınıram. Ey Rəbbim! Cəhənnəmdəki əzabdan və qəbirdəki əzabdan Sənə sığınıram!”[1]

((اللَّهُمَّ بِكَ أَصْبَحْنَا، وَبِكَ أَمْسَيْنَا، وَبِكَ نَحْيَا، وَبِكَ نَمُوتُ، وَإِلَيْكَ النُّشُورُ))

“Allahım, Sənin sayəndə səhərə çıxdıq, Sənin sayəndə axşama çıxdıq, Sənin sayəndə yaşayırıq, Sənin sayəndə ölürük! Dönüş də Sənədir!”[2]

((اللَّهُمَّ أَنْتَ رَبِّي لاَ إِلَهَ إِلاَّ أَنْتَ، خَلَقْتَنِي وَأَنَا عَبْدُكَ، وَأَنَا عَلَى عَهْدِكَ وَوَعْدِكَ مَا اسْتَطَعْتُ، أَعُوذُ بِكَ مِنْ شَرِّ مَا صَنَعْتُ، أَبُوءُ لَكَ بِنِعْمَتِكَ عَلَيَّ، وَأَبُوءُ بِذَنْبِي، فَاغْفِرْ لِي فَإِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ))

“Allahım, Sən mənim Rəbbimsən. Səndən başqa *ibadətə layiq* ilah yoxdur. Məni Sən yaratdın və mən Sənin qulunam. Gücüm çatan qədər Sənə verdiyim əhdə və vədə sadiqəm. Etdiklərimin şərindən

---

1 “Səhih Muslim”, 2723.

2 “Sunən Əbu Davud”, 5068; “Silsilə əl-Əhadis əs-Səhihə”, 262.

Sənə sığınıram. Mənə verdiyin neməti etiraf edirəm və günahımı boynuma alıram. Məni bağışla! Şübhəsiz ki, günahları yalnız Sən bağışlayırsan!”[1]

((اللَّهُمَّ عَافِنِي فِي بَدَنِي، اللَّهُمَّ عَافِنِي فِي سَمْعِي، اللَّهُمَّ عَافِنِي فِي بَصَرِي، لاَ إِلَهَ إِلاَّ أَنْتَ. اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْكُفْرِ، وَالْفَقْرِ، وَأَعُوذُ بِكَ مِنْ عَذَابِ الْقَبْرِ، لاَ إِلَهَ إِلاَّ أَنْتَ))

“Allahım, bədənimi salamat et! Allahım, qulağımı salamat et! Allahım, gözümü salamat et! Səndən başqa *ibadətə layiq* ilah yoxdur. Allahım, küfrdən və yoxsulluqdan Sənə sığınıram. Qəbir əzabından Sənə sığınıram. Səndən başqa *ibadətə layiq* ilah yoxdur!”[2] (*üç dəfə*).

((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي الدُّنْيَا وَالآخِرَةِ. اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي دِينِي وَدُنْيَايَ، وَأَهْلِي وَمَالِي. اللَّهُمَّ اسْتُرْ عَوْرَاتِي، وَآمِنْ رَوْعَاتِي. اللَّهُمَّ احْفَظْنِي مِنْ بَيْنِ يَدَيَّ وَمِنْ خَلْفِي، وَعَنْ يَمِينِي وَعَنْ شِمَالِي، وَمِنْ فَوْقِي، وَأَعُوذُ بِعَظَمَتِكَ أَنْ أُغْتَالَ مِنْ تَحْتِي))

“Allahım, dünyada və Axirətdə Səndən əfv və salamatlıq diləyirəm! Allahım, dinim, dünyam, ailəm və malım üçün Səndən əfv və salamatlıq diləyirəm! Allahım, eyiblərimi ört və qorxularımdan məni xatircəm et! Allahım, məni önümdən, arxamdan, sağımdan, solumdan və başımın üstündən qoru. Ayağımın altının qazılmasından Sənin əzəmətinə sığınıram!”[3]

---

[1] **“Kim bu zikri axşam desə, sonra da o gecə ona ölüm gəlsə, Cənnətə daxil olar. Həmçinin səhər desə və axşamadək ona ölüm gəlsə, Cənnətə daxil olar.”** (“Səhih əl-Buxari”, 7/150).

[2] “Sunən Əbu Davud”, 5090; “Səhih əl-Ədəb əl-Mufrad”, 701.

[3] “Sunən Əbu Davud”, 5074; “Səhih əl-Ədəb əl-Mufrad”, 465.

((اللَّهُمَّ عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ فَاطِرَ السَّمَوَاتِ وَالْأَرْضِ، رَبَّ كُلِّ شَيْءٍ وَمَلِيكَهُ، أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ أَنْتَ أَعُوذُ بِكَ مِنْ شَرِّ نَفْسِي وَمِنْ شَرِّ الشَّيْطَانِ وَشِرْكِهِ، وَأَنْ أَقْتَرِفَ عَلَى نَفْسِي سُوءًا، أَوْ أَجُرَّهُ إِلَى مُسْلِمٍ))

“Qeybdə və aşkarda olanı Bilən, göyləri və yeri *yoxdan* Yaradan Allahım, hər şeyin Rəbbi və Hökmdarı! Mən şahidlik edirəm ki, Səndən başqa *ibadətə layiq* məbud yoxdur. Nəfsimin şərindən, şeytanın şərindən və şirkindən, özümə pislik etməkdən, yaxud onu bir müsəlmana yetirməkdən Sənə sığınıram!”[1]

((بِسْمِ اللهِ الَّذِي لاَ يَضُرُّ مَعَ اسْمِهِ شَيْءٌ فِي الْأَرْضِ وَلاَ فِي السَّمَاءِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ))

“Allahın adı ilə! Hansı ki, adı çəkildikdə yerdə və göydə heç bir şey zərər verə bilməz. O, Eşidəndir, Biləndir!” (*üç dəfə*).[2]

((رَضِيتُ بِاللهِ رَبًّا، وَبِالْإِسْلاَمِ دِينًا، وَبِمُحَمَّدٍ ﷺ نَبِيًّا))

“Allahın Rəbb, İslamın din və Muhəmmədin ﷺ peyğəmbər olduğundan razıyam!” (*üç dəfə*).[3]

((يَا حَيُّ يَا قَيُّومُ بِرَحْمَتِكَ أَسْتَغِيثُ أَصْلِحْ لِي شَأْنِي كُلَّهُ وَلاَ تَكِلْنِي إِلَى نَفْسِي طَرْفَةَ عَيْنٍ))

“Ey *əbədi* Yaşayan, ey Qəyyum [kainatı yaradan və onu idarə edən, bəndələrinin işlərini yoluna qoyan və onları qoruyan]! Mərhəmətinlə kömək diləyirəm – mənim bütün işlərimi yoluna qoy, məni bir göz qırpımı belə başlı-başına buraxma!”[4]

---

1 “Musnəd İmam Əhməd”, 1/10; “Səhih əl-Ədəbul-Mufrad”, 1202 və 1204.

2 **“Kim bu zikri hər səhər üç kərə və hər axşam üç kərə desə, heç bir şey ona zərər verməz.”** (“Sunən Əbu Davud”, 5088; “Səhih əl-Ədəbul-Mufrad”, 660).

3 Rəsulullah ﷺ demişdir: **“Kim hər səhər bu zikri desə, mən onun əlindən tutub Cənnətə daxil edəcəyimə zəmanət verirəm”** (“ət-Tərğib vət-Tərhib”, 1/229; “Silsilə əl-Əhadis əs-Səhihə”, 2686.

4 “Mustədrək əl-Hakim”, 2000; “Səhih ət-Tərğib vət-Tərhib”, 661.

((أَصْبَحْنَا عَلَى فِطْرَةِ الْإِسْلاَمِ، وَعَلَى كَلِمَةِ الْإِخْلاَصِ، وَعَلَى دِينِ نَبِيِّنَا مُحَمَّدٍ ﷺ، وَعَلَى مِلَّةِ أَبِينَا إِبْرَاهِيمَ، حَنِيفاً مُسْلِماً وَمَا كَانَ مِنَ الْمُشْرِكِينَ ))

"İslam fitrətində, ixlas kəlməsində, Peyğəmbərimiz Muhəmmədin ﷺ dinində, hənif[1], müsəlman olan və müşriklərdən olmayan atamız İbrahimin millətində olaraq səhərə çıxdıq!"[2]

((لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

"Allahdan başqa *ibadətə layiq* ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Ona məxsusdur! O, hər şeyə Qadirdir!"[3]

((لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، يُحْيِي وَيُمِيتُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ))

"Allahdan başqa *ibadətə layiq* ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Ona məxsusdur! Dirildən də, öldürən də Odur. O, hər şeyə Qadirdir!" (*on dəfə*).[4]

---

[1] İxlasla Allaha ibadət edən.

[2] "Musnəd İmam Əhməd", 3/407; "Silsilə əl-Əhadis əs-Səhihə", 2989.

[3] Rəsulullah ﷺ demişdir: **"Kim səhər *bu zikri* desə, bu, onun üçün İsmail ﷺ nəslindən bir kölə azad etməyə bərabər olar, habelə, ona on savab yazılar, onun on günahı silinər, onun üçün on dərəcə yüksələr və bu, axşama kimi onu şeytandan qoruyar. Axşam bunu dedikdə də, eyni savabı qazanar və bu, onu səhərə qədər qoruyar."** ("Sunən Əbu Davud", 5077; "Mişkatul-Məsabih", 2395).

[4] Rəsulullah ﷺ demişdir: **"Kim səhər *bu zikri* <u>on dəfə</u> desə, ona hər birinə görə on savab yazılar, onun on günahı silinər, onun üçün on dərəcə yüksələr və bu, onun üçün on kölə azad etməyə bərabər olar. Üstəlik, bu kəlmələr səhərdən axşamadək onun keşiyində durar və həmin gün heç bir xoşagəlməz iş görməz. Həmçinin, bu kəlmələri axşam <u>on dəfə</u> desə, eyni fəzilətə nail olar."** ("Musnəd İmam Əhməd", 5/420; "Silsilə əl-Əhadis əs-Səhihə", 2563).

((سُبْحَانَ اللهِ وَبِحَمْدِهِ))

“Allah pak və müqəddəsdir! Ona həmd olsun!” (*yüz dəfə*).[1]

((سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ عَدَدَ خَلْقِهِ وَرِضَا نَفْسِهِ وَزِنَةَ عَرْشِهِ وَمِدَادَ كَلِمَاتِهِ))

“Yaratdıqlarının sayı, Özünün razı qaldığı, Ərşinin ağırlığı və kəlmələrinin çoxluğu qədər Allaha həmd edərək, Ona təriflər deyirik!”[2] (*üç dəfə*).

(( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ عِلْماً نَافِعاً، وَرِزْقاً طَيِّباً، وَعَمَلاً مُتَقَبَّلاً ))

“Allahım, Səndən faydalı elm, təmiz ruzi və məqbul əməl diləyirəm!” (*hər səhər*).[3]

(( اللَّهُمَّ صَلِّ وَ سَلِّمْ عَلَى نَبِيِّنَا مُحَمَّدٍ ))

“Allahım, Peyğəmbərimiz Muhəmmədə salavat və salam yetir!” (*on dəfə*).[4]

– Günəş üfüqdən bir nizə hündürlüyündə qalxdıqdan (günəş doğduqdan təxminən 15-20 dəqiqə sonra) zöhr namazından yarım saat əvvələ qədər istədiyin vaxtda duha namazını[5] qıl.

---

[1] Rəsulullah ﷺ demişdir: **“Kim bunu səhər və axşam yüz dəfə desə, Qiyamət günü heç kəs onun gətirdiyindən əfzəl heç bir şey gətirə bilməz. Yalnız o şəxsdən başqa ki, o bunu onun kimi və ya ondan çox demişdir”** (“Səhih Muslim”, 4/2071).

[2] “Səhih Muslim, 2726.

[3] İbn əs-Sunni, «Aməlul-Yovm vəl-Leylə», 54; İbn Macə, 925. Şueyb əl-Arnavut və Abdulqadir əl-Arnavut bu hədisin isnadını «Zadul-Məad» əsərinin təhqiqində (2/375) «həsən» hesab etmişlər.

[4] **«Kim səhər on dəfə, axşam da on dəfə mənə salavat gətirsə, Qiyamət günü şəfaətim ona çatar»**. Bu hədisi ət-Təbərani iki isnadla rəvayət etmişdir. Bu isnadlardan biri “ceyyid”dir. Bax: «Məcməuz-Zəvaid» 10/120; «Səhihut-Tərğib vət-Tərhib», 1/273.

[5] Rəvayət edilir ki, Aişədən رضي الله عنها: “Peyğəmbər ﷺ duha namazını qılardımı?”– deyə soruşdular. O dedi: “Bəli, Peyğəmbər ﷺ *bu namazı* dörd rükət qılar və *bəzən rükətlərin sayını* istədiyi qədər artırardı” (“Səhih Muslim”, 719). Həmçinin, rəvayət

– Duha namazını qıldıqdan sonra yüz dəfə bu zikri et:

((اللَّهُمَّ اغْفِرْ لِي، وَتُبْ عَلَيَّ، إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ))

“Allahım, məni bağışla və tövbəmi qəbul et. Həqiqətən, Sən tövbələri qəbul edənsən, rəhmlisən!”[1]

– Gün ərzində Qurandan heç olmasa bir cüz oxu ki, ay ərzində onu xətm edə[2] biləsən.[3] Yaxşı olar ki, onu səhərlər oxuyasan, çünki səhərin bərəkəti daha çoxdur.[4]

– Hər gün Qurandan heç olmasa bir ayə əzbərlə və onu gün ərzində çoxlu təkrar et.[5] Bunu da səhərlər etsən daha yaxşı olar.

– Gündəlik Quran oxumağının və əzbərləməyinin[6] Qiyamət günü sənə böyük faydası olacaq.[1]

---

edilir ki, Əbu Hureyrə ﷺ demişdir: “Ən əziz dostum (Rəsulullah ﷺ) mənə üç şeyi nəsihət etmişdir ki, mən ölənədək onları tərk edən deyiləm: hər ayın üç gününü oruc tutmaq, duha namazını qılmaq və yatmazdan əvvəl vitri qılmaq” (“Səhih əl-Buxari”, 1178).

[1] “Musnəd İmam Əhməd”, 2/21; “Səhih əl-Ədəb əl-Mufrad”, 619.

[2] Quranı xətm etmək – başdan axıradək oxumaq.

[3] Uca Allah Peyğəmbərə ﷺ belə deməyi əmr etmişdir: **“Mənə müsəlman olmaq və Quran oxumaq əmr olunub!”** (“ən-Nəml” surəsi, 91-92). Həmçinin, Peyğəmbər ﷺ səhabəsinə belə buyurmuşdur: **“Quranı hər ayda bir dəfə xətm et!”** Səhabə: “*Ya Rəsulullah,* mənim *bundan da çox oxumağa* gücüm çatar”– deyəndə, Peyğəmbər ﷺ buyurdu: **“Elə isə onu üç günə xətm et!”** (“Səhih Muslim”, 2787). Digər hədisdə də Peyğəmbər ﷺ belə demişdir: **“Hər kim Quranı üç gündən tez bir zamanda oxuyarsa, onu başa düşməz!”** (“Sunən ət-Tirmizi”, 2946; “Sıfətu Salətin-Nəbi ﷺ”, səh. 519-520).

[4] Peyğəmbər ﷺ bu ümmət üçün Allahdan xeyir-bərəkət diləyib demişdir: **“Allahım, ümmətimin *hər* gününün əvvəlinə bərəkət ver!”** (“Sunən Əbu Davud”, 2606; “Səhih Əbu Davud”, 2345). Digər bir hədisdə o ﷺ demişdir: **“Ümmətimin *hər* gününün əvvəlinə bərəkət verilmişdir!”** (“Səhih əl-Cami”, 2841).

[5] “Səhih əl-Buxari”, 5031, 5032, 5033; “Musnəd İmam Əhməd”, 4/150; “Silsilə əl-Əhadis əs-Səhihə”, 3285.

[6] Rəsulullah ﷺ demişdir: **“Quran oxuyan və onu əzbərdən bilən adam möhtərəm və müti mələklərlə eyni dərəcədədir. Çətinlik çəkərək daim Quran oxuyan**

Yemək yeməyə başladıqda, aşağıda qeyd edilən yemək-içmək ədəblərinə riayət et:

– Yediyin yemək-içmək halal və təmiz ruzilərdən olmalıdır.[2]

– Yemək-içmək sadəcə aclığı aradan qaldırmaq üçün yox, həm də Allahın rizasını qazanmaq üçün olmalıdır. Əgər mömin adam bədəninin ibadət etmək üçün[3] qüvvətli olmasından ötrü və Allahın buyurduğu **“yeyin, için”**[4] əmrini yerinə yetirmək niyyəti ilə yeyib-içirsə, etdiyi əmələ görə savab qazanır.

– Yeməyə başlamazdan əvvəl əllərini yu.[5]

– Süfrəyə qoyulmuş yemək xoşuna gəlməsə, onu pisləmə, çünki Peyğəmbər ﷺ heç vaxt heç bir yeməyi pisləməzdi. Yemək xoşuna gəldikdə, onu yeyər, əks halda isə onu yeməzdi.[6]

---

**adam isə iki savab qazanır”** (“Səhih əl-Buxari”, 4937; “Səhih Muslim”, 797). Digər bir hədisdə o ﷺ demişdir: **“Ən xeyirliniz Quranı öyrənən və onu *başqalarına* öyrədəninizdir”** (“Səhih əl-Buxari”, 5027). Başqa bir hədisdə o ﷺ demişdir: **“Qiyamət günü Qurandan *əzbər* bilən *mömin* adama belə buyurulacaq: “Oxu, yüksəl! Dünyada oxuduğun kimi, avazla oxu, çünki sənin mənzilin dünyada ikən oxuduğun son ayənin yanında olacaq”** (“Sunən Əbu Davud”, 1464; “Silsilə əl-Əhadis əs-Səhihə”, 2240). Yenə bir hədisdə o ﷺ demişdir: **“İnsanlar arasında Allahın əzizləri vardır”.** Səhabələr soruşdular: “Kimlərdir onlar, ya Rəsulullah?” O dedi: **“Quran əhli. Onlar Allahın əzizləri və Onun ən yaxınlarıdır”** (“Musnəd İmam Əhməd”, 1/556; “Səhih ət-Tərğib vət-Tərhib”, 1432).

[1] Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: **“Qiyamət günü Quran gəlib *onu oxuyan mömin adam üçün*: “Ey Rəbbim, ona bəzək ver!”– deyəcək və dərhal həmin adamın başına kəramət tacı qoyulacaq. Sonra o: “Ey Rəbbim, onun bəzəyini artır!”– deyəcək. Onda ona kəramət əbası geyindiriləcək. Sonra o: “Ey Rəbbim, ondan razı qalmağını diləyirəm!”– deyəcək və Rəbbi ondan razı qalacaq. Sonra o adama belə buyurulacaq: “Oxu, yüksəl! Hər bir ayəyə görə sənin gözəlliyin artacaq!”** (“Sunən ət-Tirmizi”, 2915; “Səhih əl-Cami”, 8030).

[2] “əl-Bəqərə”, surəsi 172; “əl-Muminun” surəsi, 51; “Səhih Muslim”, 1015.

[3] “əl-Beyyinə” surəsi, 5.

[4] “əl-Əraf” surəsi, 31.

[5] **“Təmizlik imanın yarısıdır”** (“Səhih Muslim”, 223).

[6] “Səhih əl-Buxari”, 5409.

– Yemək süfrəsinin yerdən olması məsləhətdir.[1] Süfrə arxasında iki diz üstə oturmaq, yaxud sol dizin üstə oturub, sağ dizi dikəltmək müstəhəbdir. Həmçinin, bardaş qurub oturmaq da olar. Xüsusilə qeyd edək ki, bu oturuş təvazökarlıq əlamətidir.[2] Həm də belə oturub yemək yedikdə, adam mədəsini tamamilə yeməklə doldurmur. Bu oturuşda adam doyanda, mədəsinin üçdə biri yeməklə dolmuş olur, qalan üçdə ikisi isə su və hava üçün qalır.[3]

– Söykənmiş[4] və ya dirsəklənmiş halda yemək yemə. Bu cür yemək yemək sünnəyə ziddir.[5]

– Yemək yeməyə başladıqda "bismilləh" de, sağ əlinlə öz qabağından ye.[6]

– Çəngəl, qaşıq və bıçaqla yemək icazəli olsa da, sağ əllə, xüsusilə də üç barmaqla – baş, işarə və orta barmaqla yemək, habelə yeməyi bitirdikdə barmaqları yalamaq sünnəyə uyğundur.[7]

– Bil ki, "bismilləh" deməyib yeməyə başlasan, şeytan sənin yeməyinə şərik olacaq, özün də hiss etmədən yeməyin bərəkəti gedəcək.[8]

---

[1] "Səhih əl-Buxari", 5099.

[2] "Sunən Əbu Davud", 3773; "Silsilə əl-Əhadis əs-Səhihə", 2105.

[3] **"İnsanın ən çox şər doldurduğu tuluq onun qarnıdır. Adəm övladına belini dik tutacaq qədər** ***az miqdarda*** **loxmalar** ***yemək*** **bəs edər. Əgər daha çox yemək istəsə, onda** ***mədəsinin*** **üçdə birini yemək üçün, üçdə birini su üçün, üçdə birini də hava üçün ayırsın"** ("Sunən ət-Tirmizi", 2380; "Silsilə əl-Əhadis əs-Səhihə", 2265).

[4] "Söykənmək üç cürdür: birincisi, sağ və ya sol tərəfə dirsəklənmək; ikincisi, ayaqları uzadıb bir-birinin üstünə aşırtmaq; üçüncüsü, iki əldən birinə söykənib digəri ilə yemək yemək. Bunların hər üçü sünnəyə ziddir" ("Zadul-Məad" fi Hədyi Xayril-İbad", 1/142).

[5] "Səhih əl-Buxari", 5399.

[6] "Səhih əl-Buxari", 5061, 5376; "Səhih Muslim", 2022.

[7] "Səhih əl-Buxari", 5465; "Səhih Muslim", 2032, 2035. Qeyd etmək lazımdır ki, əgər adam sağ əlindəki şikəstlik, yaxud yara və ya başqa buna bənzər üzürlü bir səbəbdən dolayı sağ əli ilə yeyə bilmirsə, sol əli ilə yeyə bilər.

[8] "Səhih əl-Buxari", 5393; "Səhih Muslim", 2018; "Şəmail ən-Nəbi", 193.

– Onu da qeyd edək ki, yeməyə başladıqda, bir nəfərin hamının adından "bismilləh" deməsi kifayət etmir, yeməyə başlayan hər kəsin "bismilləh" deməsi vacibdir.[1]

– "Bismilləh" deyəndən sonra Allahdan süfrədəki yemək üçün bərəkət dilə:

((اللَّهُمَّ بَارِكْ لَنَا فِيهِ وَارْزُقْنَا خَيْرًا مِنْهُ))

"Allahım, bunu bizim üçün bərəkətli et və bizə bundan daha xeyirlisini nəsib et!"[2]

– Yeməyə başladıqda "bismilləh" deməyi unutsan, onda belə de:

((بِسْمِ اللهِ أَوَّلَهُ وَآخِرَهُ))

"Əvvəldə də, axırda da Allahın adı ilə!"[3]

– Sənin yanında birisi yeməyə başladıqda "bismilləh" deməsə, bunu onun yadına salmaq, hətta "bismilləh" demədən əlini yeməyə uzadarsa, onun əlindən tutub saxlamaq məsləhətdir.[4]

– **"Yeməyin qırağından yeyin! Ortasını axıra saxlayın ki, bu yemək sizin üçün bərəkətli olsun."**[5]

– Yeməyi tələmtələsik yemə. Belə etmək Peyğəmbərin ﷺ sünnəsinə uyğun deyil və zərərlidir.[6]

– Yeməyi camaatla (ailənlə, yaxud dostlarınla və s. ilə) birlikdə yeməyin daha yaxşıdır.[7] Onda yeməyin bərəkəti artır, hətta bir

---

[1] "Səhih əl-Buxari", 5061, 5376; "Səhih Muslim", 2022.

[2] "Sunən Əbu Davud", 3730; "Silsilə əl-Əhadis əs-Səhihə", 2320.

[3] İbn Sunni, "Aməlul-Yovm vəl-Leylə", 453; "Silsilə əl-Əhadis əs-Səhihə", 198.

[4] "Səhih Muslim", 2017;

[5] "Sunən Əbu Davud", 3773; "Sunən İbn Macə", 3275; "Silsilə əl-Əhadis əs-Səhihə", 393.

[6] "Səhih əl-Buxari", 672.

[7] "Sunən Əbu Davud", 3773; "Silsilə əl-Əhadis əs-Səhihə", 2105.

nəfərin yeməyi iki nəfərə, iki nəfərin yeməyi üç nəfərə və üç nəfərin yeməyi dörd nəfərə bəs edir.[1]

– Yeməyi bitirdikdən sonra de:

((الْحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمَنِي هَذَا الطَّعَامَ، وَرَزَقَنِيهِ مِنْ غَيْرِ حَوْلٍ مِنِّي وَلاَ قُوَّةٍ))

"Bu yeməyi mənə yedirdən və özüm heç bir qüdrət və güc sərf etmədən onu mənə bəxş edən Allaha həmd olsun!"[2]

Yeməyi bitirdikdən sonra sadəcə "Əlhəmdulilləh" demək kifayətdir, lakin tam dua etmək daha əfzəldir.

Bundan başqa aşağıdakı duaları da edə bilərsən:

((الْحَمْدُ لِلَّهِ حَمْداً كَثِيراً طَيِّبًا مُبَارَكًا فِيهِ غَيْرَ مَكْفِيٍّ وَلاَ مُوَدَّعٍ وَلاَ مُسْتَغْنًى عَنْهُ رَبَّنَا))

"Rəbbimiz Allaha həmd olsun, *özü də* çoxlu, xoş, mübarək, *sonsuz*, ardı-arası kəsilməyən, hər kəsin möhtac olduğu bir həmd!"[3]

((الْحَمْدُ لِلَّهِ الَّذِي كَفَانَا وَأَرْوَانَا غَيْرَ مَكْفِيٍّ وَلاَ مَكْفُورٍ))

"Ehtiyacımızı ödəyən və susuzluğumuzu yatıran Allaha həmd olsun, *özü də,* sonsuz və inkar olunmayan bir həmd!"[4]

((اللَّهُمَّ أَطْعَمْتَ وَأَسْقَيْتَ، وَأَغْنَيْتَ وَأَقْنَيْتَ، وَهَدَيْتَ وَأَحْيَيْتَ، فَلَكَ الْحَمْدُ عَلَى مَا أَعْطَيْتَ))

---

[1] "Səhih əl-Buxari", 5392; "Səhih Muslim", 2058. Qeyd edək ki, burada müəyyən bir say qəsd edilmir, sadəcə olaraq, toplum halında bir qabdan yemək yeyəndə az adamın yeməyinin çox adama bəs edəcəyi qəsd edilir. Belə ki, başqa bir rəvayətdə bir nəfərin yeməyinin iki nəfərə, iki nəfərin yeməyinin dörd nəfərə, dörd nəfərin yeməyinin də səkkiz nəfərə bəs edəcəyi xəbər verilir. (Bax: "Səhih Muslim", 2059).

[2] **"Kim yeməyi bitirdikdən sonra bu duanı desə, keçmiş günahları bağışlanar"** ("Sunən Əbu Davud", 4023; "Səhih əl-Cami", 6086).

[3] "Səhih əl-Buxari", 5458.

[4] "Səhih əl-Buxari", 5459.

"Allahım, *bəndələrinə* yemək yedirdən, su içirdən, zənginlik bəxş edən, qane edən, hidayət verən və dirildən *Sənsən*! Verdiyin *nemətlərə* görə Sənə həmd-sənalar olsun!"[1]

((الْحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمَ وَسَقَى وَسَوَّغَهُ وَجَعَلَ لَهُ مَخْرَجًا))

"Yemək yedirdən və su içirdən, onun həzmini asanlaşdıran və onun üçün ifrazat yolu açan Allaha həmd olsun!"[2]

– Yeməkdən sonra ağzı su ilə yaxalamaq da sünnəyə aiddir.[3]

– Su içəndə[4] də həmçinin, sağ əllə iç, başlayanda "bismilləh", bitirəndə də "əlhəmdulilləh"– de.[5]

– Suyu ayaq üstə deyil, oturan halda,[6] həm də üç nəfəsə[7] içmək sünnədir. Yalnız zəruri halda ayaq üstə su içmək icazəlidir.[8]

– Su içdikdə qabın içinə üfürmək bəyənilmir.[9]

– Suyu birbaşa su saxlanılan qabın[10] ağzından içmək bəyənilmir.[11] Suyu qədəhə, fincana, bardağa və s. töküb içmək sünnədir.

– Sonra evdən çıxıb iş dalınca (ruzi qazanmağa, yaxud elm öyrənməyə, yaxud yardım etməyə və s.) gedirsən.[12] Getdikdə aşağıdakı duaları et:

---

[1] "Musnəd İmam Əhməd", 4/62; "Silsilə əl-Əhadis əs-Səhihə", 71.

[2] "Sunən Əbu Davud", 3851; "Silsilə əl-Əhadis əs-Səhihə", 2061.

[3] "Səhih əl-Buxari", 209.

[4] Burada su deyildikdə, istənilən halal maye – süd, meyvə şirəsi, çay və sairə də buna aiddir.

[5] İbn Sunni, "Aməlul-Yovm vəl-Leylə", 471; "Səhih əl-Cami", 4956.

[6] "Səhih əl-Buxari", 5615, 5631; "Səhih Muslim", 2024.

[7] Peyğəmbər ﷺ suyu üç qurtuma içər və hər qurtum aldıqdan sonra fincanı kənara çəkib nəfəs alar, sonra yenə sudan qurtum alardı. Yəni nəfəsini qabın içinə deyil, kənara buraxardı. ("Səhih əl-Buxari", 5308; "Səhih Muslim", 2028).

[8] "Səhih əl-Buxari", 1556; "Səhih Muslim", 2027. "Zadul-Məad", 4/205.

[9] "Səhih əl-Buxari", 153.

[10] Su saxlanılan qab – tuluq, cürdək, səhəng, dolça və s.

[11] "Səhih əl-Buxari", 5625, 5627; "Səhih Muslim", 2023.

[12] "əl-Mulk" surəsi, 15 və "əl-Qəsəs" surəsi, 73; "Səhih Muslim", 2664.

– Evdən bayıra çıxdıqda bu iki duanı oxu:

((بِسْمِ اللهِ تَوَكَّلْتُ عَلَى اللهِ، لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ))

"Allahın adı ilə! Allaha təvəkkül etdim. Qüdrət və güc yalnız Allahdadır!"[1]

((اللَّهُمَّ أَعُوذُ بِكَ أَنْ أَضِلَّ، أَوْ أُضَلَّ، أَوْ أَزِلَّ، أَوْ أُزَلَّ، أَوْ أَظْلِمَ، أَوْ أُظْلَمَ، أَوْ أَجْهَلَ، أَوْ يُجْهَلَ عَلَيَّ))

"Allahım, doğru yoldan azmaqdan və ya azdırılmaqdan, çaşmaqdan və ya çaşdırılmaqdan, zülm etməkdən və ya zülmə məruz qalmaqdan, cahil olmaqdan və ya mənə qarşı cahillik edilməsindən Sənə sığınıram!"[2]

– Minik vasitəsinə (şəxsi maşınına, yaxud ictimai nəqliyyata) minərkən: "Bismilləh!"– de, oturduqdan sonra: "Əlhəmdulilləh!"– de, sonra bu duanı oxu:

((سُبْحَانَ الَّذِي سَخَّرَ لَنَا هَذَا وَمَا كُنَّا لَهُ مُقْرِنِينَ وَإِنَّا إِلَى رَبِّنَا لَمُنْقَلِبُونَ))

**"Bu miniyi bizim ixtiyarımıza verən Allah pak və müqəddəsdir. Yoxsa bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq!"**[3] Ardından üç dəfə "Əlhəmdulilləh!", sonra üç dəfə "Allahu Əkbər!"– de, sonra da bu duanı oxu:

((سُبْحَانَكَ إِنِّي ظَلَمْتُ نَفْسِي فَاغْفِرْ لِي، فَإِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ))

---

[1] "Kim evdən çıxdıqda bu duanı oxusa, həmin vaxt *mələk ona*: **"Doğru yola yönəldin, *işlərin* yoluna qoyuldu, *şərdən* qorundun!"– deyər, üstəlik, şeytan ondan uzaq durar və şeytanlardan biri o birisinə deyər: "Doğru yola yönəlmiş, *işləri* yoluna qoyulmuş və *şərdən* qorunmuş adama sən nə edə bilərsən?!"** ("Sunən Əbu Davud", 5095; "Səhih əl-Cami", 499).

[2] "Sunən ət-Tirmizi", 3423; "Silsilə əl-Əhadis əs-Səhihə", 3163.

[3] "əz-Zuxruf" surəsi, 13-14.

"Sən pak və müqəddəssən! Mən özümə zülm etdim. Məni bağışla! Şübhəsiz ki, günahları ancaq Sən bağışlayırsan!"[1]

– Bayırda insanlarla ünsiyyətdə olduğun müddətcə onları yaxşı işlər görməyə təşviq et, pis əməllərdən çəkindir, onlarla gözəl rəftar et, bacardığın qədər gözəl əxlaq nümayiş etdirməyə, ələlxüsus da onların üzlərinə təbəssüm etməyə çalış. İnsanların ehtiyacı olan işlərdə imkanın daxilində onlara həm maddi, həm də mənəvi yardım et, xüsusilə də dul qadınlara, yetimlərə və kimsəsiz qocalara dayaq ol. Tanıdığın və tanımadığın müsəlmana salam ver, salamını al, imkan daxilində xəstəni ziyarət et və digər haqları yerinə yetirməyə çalış. Gününü sənə savab qazandıracaq işlərlə məşğul et, bihudə işlərdən və faydasız insanlardan uzaq ol.[2]

– Əgər tələbəsənsə, dərslərini yaxşı oxu, öyrəndiyin elmi mükəmməl öyrən, öyrəndiyini həyata keçirməyə çalış və o elmi sənə öyrədən insanlara ehtiram göstər. Bil ki, uca Allah, möminlər arasında elmi olan kimsələri digərlərindən uca tutur.[3]

---

[1] "Sunən Əbu Davud", 2602; "Səhih Əbu Davud", 7/355.

[2] Peyğəmbərimizin ﷺ belə həyat tərzi hər bir müsəlmana məlum olan yüzlərlə səhih hədislərdə öz təsdiqini tapıb. Hədislərdən birində Peyğəmbər ﷺ öz ümmətini yaxşı işlər görməyə təşviq edərək, belə buyurmuşdur: **"Doğru yolla gedin, *ən kamil əməlləri yerinə yetirməyə* yaxınlaşın, səhər, axşam və gecənin bəzi saatlarında *yaxşı işlər görməyə* çalışın və daim orta yol tutun *ki, muradınıza* çatasınız"** ("Səhih əl-Buxari", 6463; "Səhih Muslim", 2818).

[3] **"Heç bilənlərlə bilməyənlər eyni ola bilərlərmi?!"** ("əz-Zumər" surəsi, 9); **"Allah sizdən iman gətirənlərin və özlərinə elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaldır"** ("əl-Mucadilə" surəsi, 11). Bir hədisdə belə buyurulur: **"Kim *faydalı* elm öyrənmək üçün yola çıxsa, Allah onun Cənnətə gedən yolunu asanlaşdırar"** ("Səhih Muslim", 6793). Burada **"yola çıxsa"** deyildikdə, elm öyrənməyə səbəb olan hər bir vasitə – səfərə çıxmaq, faydalı kitablar oxumaq, alimlərin yanında oturub onları dinləmək və s. qəsd edilir.

– Gün ərzində edəcəyin ən yaxşı əməllərdən biri də tanıdığın və tanımadığın müsəlmana salam verməkdir.[1] Müsəlmanların bir-birlərinə salam verməsi isə onların cənnətlik olmaları üçün vasitədir.[2]

– Gün ərzində edəcəyin digər bir yaxşı əməl də kasıblara sədəqə verməyindir. Belə ki, bu əməl səni Cəhənnəmdən qoruyar.[3]

– Yaxşı olar ki, imkan daxilində fərz namazlarını, ələlxüsus da sübh və işa namazlarını camaatla birlikdə məsciddə qılasan. Əgər məscidə getsən, yol boyu bu duanı oxu:

((اللهُمَّ اجْعَلْ فِي قَلْبِي نُورًا، وَفِي لِسَانِي نُورًا، وَاجْعَلْ فِي سَمْعِي نُورًا، وَاجْعَلْ فِي بَصَرِي نُورًا، وَاجْعَلْ مِنْ خَلْفِي نُورًا، وَمِنْ أَمَامِي نُورًا، وَاجْعَلْ مِنْ فَوْقِي نُورًا، وَمِنْ تَحْتِي نُورًا، اللهُمَّ أَعْطِنِي نُورًا))

"Allahım, qəlbimə və dilimə nur saç! Qulağıma və gözümə nur saç! Arxama və önümə nur saç! Başımın üstündən və ayağımın altından nur saç! Allahım, mənə nur bəxş et!"[4]

– Nəhayət, məscidə daxil olmaq istədikdə, ora sağ ayaqla daxil ol və bu duanı oxu:

((أَعُوذُ بِاللَّهِ الْعَظِيمِ، وَبِوَجْهِهِ الْكَرِيمِ، وَسُلْطَانِهِ الْقَدِيمِ، مِنَ الشَّيْطَانِ الرَّجِيمِ))

"Allahın rəhmətindən qovulmuş şeytandan Əzəmətli Allaha, Onun kəramətli Üzünə və əzəli hökmünə sığınıram!"[5]

---

[1] "Səhih əl-Buxari", 12; "Səhih Muslim", 160.

[2] "Səhih Muslim", 194; "Sunən Əbu Davud", 5193; "Sunən ət-Tirmizi, 2904; "Sunən ən-Nəsai əl-Kubra", 5928; "Sunən İbn Macə", 68; "Musnəd İmam Əhməd", 1/167; 2/391, 442, 477, 495, 512; "Mustədrək əl-Hakim", 4/167.

[3] Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Heç olmasa, yarım xurma *sədəqə* verməklə özünüzü Cəhənnəmdən qoruyun."** ("Səhih əl-Buxari", 1413; "Səhih Muslim", 1016).

[4] "Səhih Muslim", 763.

[5] **"Bu zikri deyən adam haqqında şeytan belə deyər: "Bu gün o məndən qorundu!"** ("Sunən Əbu Davud", 466; "Səhih ət-Tərğib vət-Tərhib", 1606).

Bu duanın ardınca de:

((بِسْمِ اللهِ والصَّلاةُ والسَّلامُ عَلَى رَسُولِ اللهِ، اللَّهُمَّ افْتَحْ لِي أَبْوَابَ رَحْمَتِكَ))

“Allahın adı ilə, Rəsulullaha salavat və salam olsun! Allahım, Öz mərhəmət qapılarını mənim üçün aç!”[1]

– Məscidə daxil olduqdan sonra təhiyyətul-məscid[2] (salam) namazını qıl.[3]

– Zöhr namazının azanından sonra dörd rükət[4] sünnə namazını, ardından da camaatla birlikdə zöhr namazını qıl. Namazdan sonrakı zikrləri etdikdən sonra iki[5] və ya dörd rükət sünnə namazını qıl.[6]

– Gündüz zöhrdən əvvəl və ya sonra imkan daxilində bir az yat dincəl.[7]

– Əsr namazının azanından sonra dörd rükət sünnə namazını,[8] ardından da əsr namazını qıl.[9] Bu namazı da camaatla birlikdə qılsan, əlbəttə ki, daha çox savab qazanarsan.

– Nəhayət, məsciddən çıxdıqda sol ayağınla çıx və bu duanı oxu:

---

[1] “Sunən Əbu Davud”, 1/260; “Səhih əl-Cami”, 514.

[2] Bu namazı qılmaq müstəhəbdir.

[3] “Səhih əl-Buxari”, 444; “Səhih Muslim”, 959.

[4] Dörd rükət qılınan sünnə namazlarını ayrı-ayrı da, birləşdirərək də qılmaq olar. Hər ikisinə dair səhih hədislər varid olub. Lakin Peyğəmbər ﷺ bu namazları çox vaxt ayrı-ayrı (iki rükət-iki rükət) qılardı. (“Səhih əl-Buxari”, 1182).

[5] “Səhih əl-Buxari”, 937; “Səhih Muslim”, 728.

[6] **“Kim zöhrdən əvvəl dörd rükət və zöhrdən sonra dörd rükət namaz qılsa, Cəhənnəm odu ona haram edilər”** (“Sunən Əbu Davud”, 1269; “Sunən ət-Tirmizi”, 428; “Səhih əl-Cami”, 6195).

[7] Təbərani, “Mocəm əl-Ovsat”, 28; “Silsilə əl-Əhadis əs-Səhihə”, 1647.

[8] Bu nafilə namazını bəzən qılıb, bəzən buraxmaq sünnəyə uyğundur. Bu namazın savabı barədə Peyğəmbər ﷺ belə demişdir: **“Əsrdən əvvəl dörd rükət namaz qılan kimsəyə Allah rəhm edər”** (“Sunən Əbu Davud”, 1271; “Sunən ət-Tirmizi”, 430; “Səhih əl-Cami”, 3493).

[9] “əl-Bəqərə” surəsi, 238.

((بِسْمِ اللهِ والصَّلاةُ والسَّلامُ عَلَى رَسُولِ اللهِ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنْ فَضْلِكَ، اللَّهُمَّ اعْصِمْنِي مِن الشَّيْطَانِ الرَّجِيم ))

"Allahın adı ilə! Salavat və salam olsun Allahın elçisinə! Allahım, Sənin lütfündən diləyirəm! Allahım, məni daşqalaq olunmuş (rəhmətindən qovulmuş, lənətə gəlmiş) şeytandan qoru!"[1]

– Gün ərzində hər hansı bir məclisdə iştirak etsən, məsclidən qalxarkən bu duanı et:

((سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ أَنْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ))

"Allahım, Sən pak və müqəddəssən! Sənə həmd olsun! Mən şahidlik edirəm ki, Səndən başqa məbud yoxdur. Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm!"[2]

– Gün ərzində boş vaxtın olanda Peyğəmbərin ﷺ etdiyi zikrləri et ki, vaxtın səmərəli keçsin.[3] Həmin zikrlər aşağıdakılardır:

((لاَ إِلَه إِلاَّ اللهُ))

"Allahdan başqa *ibadətə layiq* ilah yoxdur."

Bu, ən fəzilətli[4] zikrdir. Bu zikri edən kimsənin mükafatı da olduqca böyükdür.[5]

---

[1] Əvvəlki mənbə.

[2] "Sunən Əbu Davud", 3433; "Mişkat əl-Məsabih", 2433.

[3] Uca Allah buyurur: "Məni zikr edin ki, Mən də sizi zikr edim" ("əl-Bəqərə" surəsi, 152); Peyğəmbər ﷺ də belə buyurmudşur: **"Çalış dilin daim Allahı zikr etməklə islaq qalsın"** ("Sunən ət-Tirmizi", 5/458; "Səhih əl-Cami", 7700).

[4] Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Ən fəzilətli zikr "Lə ilahə illəllah!" və ən fəzilətli dua "Əlhəmdulilləh"dir"** ("Sunən ət-Tirmizi", 3680; "Silsilə əl-Əhadis əs-Səhihə", 1497).

[5] Bu xüsusda Peyğəmbər ﷺ bunları demişdir:

**"Kim "la ilahə illəllah!" desə, Cənnətə daxil olar."** ("Səhih İbn Hibban", 151; "Silsilə əl-Əhadis əs-Səhihə", 2355);

**"La ilahə illəllah" əməllərin ən fəzilətlisidir."** ("Musnəd İmam Əhməd", 5/169; "Silsilə əl-Əhadis əs-Səhihə", 1373);

Bu zikrin daha geniş ləfzdə olanları da var, məsələn:

((لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ))

"Allahdan başqa *ibadətə layiq* ilah yoxdur, O, təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Ona məxsusdur! O, hər şeyə Qadirdir!"[1]

Gündəlik olaraq təkrar-təkrar deyilməsi bəyənilən ən fəzilətli zikrlərdən[2] biri də budur:

---

**"Səmimi-qəlbdən "la ilahə illəllah" deyən kimsələr, Qiyamət günü mənim şəfaətim sayəsində ən böyük səadətə qovuşacaqlar"** ("Səhih əl-Buxari", 99).

[1] Peyğəmbər ﷺ demişdir: **"Kim gün ərzində yüz dəfə <u>bu zikri</u> desə, on kölə azad etmiş sayılar, üstəlik, ona yüz savab yazılar, onun yüz günahı silinər, *bundan başqa, bu dualar* həmin gün axşama qədər onu şeytandan qoruyar və *bu duanı* ondan çox deyən kimsə istisna olmaqla, heç kəs onun gətirdiyindən əfzəl başqa bir şey gətirə bilməz"** ("Səhih əl-Buxari", 6403; "Səhih Muslim", 2071).

Şeyx Muhəmməd Nasirəddin əl-Albani رحمه الله "Silsilə əl-Əhadis əs-Səhihə" əsərində (2762) demişdir: "Bu hədisdə "yüz dəfə" deyildikdə, gündə bir vaxtda bunu etmək nəzərdə tutulmur. Qeyd edək ki, bunu <u>həm səhər</u> yüz dəfə, <u>həm də axşam</u> yüz dəfə demək sünnədir. Bu da, imam Nəsainin rəvayət etdiyi hədisdə öz təsdiqini tapmışdır. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "...səhər yüz dəfə və axşam yüz dəfə"– desə..." ("Sunən ən-Nəsai", 575).

[2] Bu xüsusda Peyğəmbər ﷺ bunları demişdir:

**"Allah üçün ən sevimli kəlam dörddür: "Subhanəllah, əlhəmdulilləh, la ilahə illəllah, Allahu əkbər"** ("Səhih Muslim", 2/172).

**"Mənim üçün "subhanəllah, əlhəmdulilləh, la ilahə illəllah, Allahu əkbər" demək, dünya və onun içindəkilərdən daha əzizdir."** ("Səhih Muslim", 8/70).

**"Subhanəllah, əlhəmdulilləh, la ilahə illəllah, Allahu əkbər. Bu zikrlər, sahibini Cəhənnəm odundan qoruyan və onu öndə aparan, habelə, savabı əbədi qalacaq yaxşı əməllərdəndir"** ("Mustədrək əl-Hakim", 1/541. Bu hədis səhihdir, bax: "Səhih əl-Cami", 3214).

Rəvayət edilir ki, Ummu Hani رضي الله عنها demişdir: "Bir gün Peyğəmbər ﷺ mənə baş çəkməyə gəldi və mən ona dedim: "Mən artıq yaşa dolmuşam, qocalıq məni əldən salıb. Mənə elə bir əməl öyrət ki, mən oturduğum yerdə ona əməl edim *və savab qazanım.*" Peyğəmbər ﷺ buyurdu: **"Yüz dəfə "Subhanəllah!" de, bu sənin**

((سُبْحَانَ اللَّهِ، وَالْحَمْدُ لِلَّهِ، وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَاللَّهُ أَكْبَرُ))

"Allah pak və müqəddəsdir! Həmd Allaha məxsusdur! Allahdan başqa *ibadətə layiq olan* məbud yoxdur! Allah ən böyükdür!"

Gündəlik olaraq təkrar-təkrar deyilməsi bəyənilən ən fəzilətli zikrlərdən[1] biri də budur:

((لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ))

"Qüdrət və güc yalnız Allahdadır!"

Gündəlik olaraq təkrar-təkrar deyilməsi bəyənilən ən fəzilətli zikrlərdən[2] biri də budur:

---

**üçün İsmayıl ﷵ nəslindən yüz kölə azad etməyə bərabər olacaq. Yüz dəfə "əlhəmdulilləh!" de, bu sənin üçün Allah yolunda vuruşan mücahidlərin mindiyi yəhərlənmiş və yüyənlənmiş yüz ata bərabər olacaq. Yüz dəfə "Allahu əkbər!" de, bu sənin üçün qurban kəsilmiş və Allah tərəfindən qəbul edilmiş yüz dəvəyə bərabər olacaq. Yüz dəfə "la ilahə illəllah!" de, bu sənin üçün yerlə göy arasını savabla dolduracaq. Və bu zikri etdiyin gün həmin zikri edən kimsə istisna olmaqla, heç kəsin savabı səninkindən çox olmayacaq."** ("Musnəd İmam Əhməd", 6/344; "Silsilə əl-Əhadis əs-Səhihə", 1316).

[1] Bu xüsusda Peyğəmbər ﷺ bunları demişdir:

**"La hovlə və la quvvətə illə billəh!" kəlməsini çox zikr edin! Çünki bu kəlmə Cənnət xəzinələrindən biridir."** ("Musnəd İmam Əhməd", 2/333; "Silsilə əl-Əhadis əs-Səhihə", 1528);

**"Yer üzündə "la ilahə illəllah, Allahu əkbər, subhanəllah, əlhəmdulilləh, la hovlə və la quvvətə illə billəh" deyən elə bir mömin yoxdur ki, onun günahları dənizdəki köpüklərdən çox olsa belə, bağışlanmasın"** ("Musnəd Əhməd", 2/211; "Sunən ət-Tirmizi", 3460; "Səhih əl-Cami", 5636).

[2] Rəvayət edilir ki, Rəsulullah ﷺ demişdir: **"Bir zaman İblis öz Rəbbinə: "Sənin izzətinə və cəlalına and olsun ki, Adəm övladının ruhu bədənində olduğu müddətcə** (ölənədək) **mən onları haqq yolundan sapdıracağam!"– demiş, Rəbbi də ona belə cavab vermişdi: "İzzətimə və cəlalıma and olsun ki, onlar Məndən bağışlanma dilədikcə, Mən onları bağışlayacağam!"** ("Musnəd İmam Əhməd", 3/41; "Səhih əl-Cami", 499).

((أَسْتَغْفِرُ اللهَ وَأَتُوبُ إِلَيْهِ))

“Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm”.

Peyğəmbər ﷺ öz ümmətinə bu zikri gündəlik olaraq təkrarlamağı buyuraraq demişdir: **“Ey insanlar, Allaha tövbə edin və Ondan bağışlanma diləyin! Həqiqətən, mən hər gün yüz dəfə Ona tövbə edir və Ondan bağışlanma diləyirəm!”**[1]

“Əstəğfirullahə və ətubu ileyh” daha geniş yayılmış olsa da, Sünnədə istiğfarın digər formaları da mövcuddur:

Rəvayət edilir ki, İbn Ömər رضي الله عنهما demişdir: “Biz Peyğəmbərin ﷺ məclisində olanda onun yüz dəfə:

((رَبِّ اغْفِرْ لِي، وَتُبْ عَلَيَّ، إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ))

“Ey Rəbbim, məni bağışla və tövbəmi qəbul et. Həqiqətən də, Sən Tövbələri qəbul edənsən, Rəhmlisən!”– dediyini sayardıq.”[2]

Möminlərin anası Aişə رضي الله عنها demişdir: “Rəsulullah ﷺ *ömrünün sonuna yaxın* bu duanı çox edərdi:

((سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ، أَسْتَغْفِرُ اللهَ وَأَتُوبُ إِلَيْهِ))

“Allah pak və müqəddəsdir, Allaha həmd olsun! Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm!”[3]

Möminlərin anası Aişə رضي الله عنها həmçinin xəbər vermişdir ki, Peyğəmbər ﷺ son nəfəsində əllərini göyə qaldırıb belə dua etmişdir:

((اللَّهُمَّ اغْفِرْ لِي وَارْحَمْنِي وَأَلْحِقْنِي بِالرَّفِيقِ الأَعْلَى))

---

[1] “Musnəd İmam Əhməd”, 4/260-261; “Silsilə əl-Əhadis əs-Səhihə”, 1452. Əbu Hureyrə رضي الله عنه demişdir: “Mən Rəsulullahdan ﷺ daha çox: “Allahdan bağışlanma diləyirəm və Ona tövbə edirəm!”– deyən bir kimsə görməmişəm.” (“Səhih İbn Hibban”, 928).

[2] “Musnəd İmam Əhməd”, 2/12; “Silsilə əl-Əhadis əs-Səhihə”, 556.

[3] “Səhih Muslim”, 484.

"Allahım, məni bağışla, mənə rəhm et və məni uca dostlara qovuşdur!"[1]

Gündəlik olaraq təkrar-təkrar deyilməsi bəyənilən ən fəzilətli zikrlərdən[2] biri də budur:

((سُبْحَانَ اللّٰهِ وَبِحَمْدِهِ))

"Allah pak və müqəddəsdir. Allaha həmd olsun!"

Bu, Qiyamət günü tərəzidə savabı ən ağır gələn zikrlərdəndir.[3]

Peyğəmbər ﷺ öz ümmətinə gündəlik olaraq bu zikri yüz dəfə təkrar etməyi tövsiyə edərək demişdir: **"Kim hər gün yüz dəfə "Subhanəllahi və bihəmdih"– desə, onun günahları dənizdəki köpüklər qədər olsa belə, bağışlanar."**[4]

Gündəlik olaraq təkrar-təkrar deyilməsi bəyənilən ən fəzilətli zikrlərdən[5] biri də Rəsulullah ﷺ yad edildikdə ona salavat və salam deməkdir.[6]

---

[1] "Səhih əl-Buxari", 5674; "Səhih Muslim", 2444.

[2] Rəvayət edilir ki, *bir gün* Rəsulullahdan ﷺ ən fəzilətli kəlmə barədə soruşdular. O dedi: **"*Bu,* Allahın Öz mələkləri və ya qulları üçün seçdiyi "Subhanəllahi və bihəmdih" *kəlməsidir*"** ("Səhih Muslim", 7101).

[3] "Səhih əl-Buxari", 7563; "Səhih Muslim", 2694.

[4] "Səhih əl-Buxari", 6405; "Səhih Muslim", 2691.

[5] Peyğəmbər ﷺ İslam ümmətinə belə buyurmuşdur: **"Mənə çoxlu salavat deyin! Belə ki, Allah mənim üçün qəbrimin başında duran bir mələk təyin etmişdir. Ümmətimdən bir kimsə mənə salavat gətirdiyi zaman o mələk mənə deyər: "Ey Muhəmməd, filankəsin oğlu filankəs bu saat sənə salavat deyir."** (Deyləmi, "əl-Firdovs", 1/1/31; "Səhih əl-Cami", 1207). O ﷺ həmçinin demişdir: **"Kim mənə bir salavat oxuyarsa, Allah ona *bunun sayəsində* on savab yazar və onun on günahından keçər"** ("Musnəd İmam Əhməd", 3/102; "Silsilə əl-Əhadis əs-Səhihə", 829).

[6] **"Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər. Ey iman gətirənlər! Siz də ona salavat oxuyun və onu kamil ədəb-ərkanla salamlayın"** ("əl-Əhzab" surəsi, 56).

((اللَّهُمَّ صَلِّ وَسَلِّمْ عَلَى نَبِيِّنَا مُحَمَّدٍ))

“Allahım, Peyğəmbərimiz Muhəmmədə salavat və salam yetir!”

Salavatın daha geniş ləfzdə olanları da var, məsələn:

((اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ كَمَا صَلَّيْتَ عَلَى إِبْرَاهِيمَ وَعَلَى آلِ إِبْرَاهِيمَ، إِنَّكَ حَمِيدٌ مَجِيدٌ. اللَّهُمَّ بَارِكْ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ كَمَا بَارَكْتَ عَلَى إِبْرَاهِيمَ وَعَلَى آلِ إِبْرَاهِيمَ، إِنَّكَ حَمِيْدٌ مَجِيْدٌ))

“Allahım, İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım, İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!”[1]

Xüsusilə qeyd etmək lazımdır ki, Peyğəmbərin ﷺ adı çəkildikdə ona salavat oxumayan kimsə savabdan məhrum olur.[2]

– Sonra məğribdən təxminən yarım saat əvvəl axşam zikrlərini[3] etməyə başla və məğribədək onları bitir:[4]

---

[1] “Səhih əl-Buxari”, 4797; “Səhih Musluim”, 406.

[2] Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **“Məclisdə oturarkən Rəbbini zikr etməyən və Peyğəmbərinə ﷺ salavat deməyən toplum Qiyamət günü ziyana uğrayar. Allah istəsə, onlara əzab verər, istəsə, onları bağışlayar.”** (“Sunən Əbu Davud”, “Səhih əl-Cami”, 6043). O ﷺ həmçinin demişdir: **“Paxıl o kimsədir ki, mənim adım çəkildikdə mənə salavat demir”** (“Musnəd İmam Əhməd”, 1/201; “Səhih əl-Cami”, 2878).

[3] Peyğəmbər ﷺ demişdir: **“Mənim üçün sübh namazından sonra günəş çıxanadək Allahı zikr edən camaatla oturmaq, İsmail övladından dörd qulu azad etməkdən daha sevimlidir. Həmçinin, əsr namazından günəş batanadək Allahı zikr edən camaatla oturmaq, mənim üçün dörd qul azad etməkdən daha sevimlidir.”** (“Sunən Əbu Davud”, 3667; “Səhih Əbu Davud”, 2/698”).

[4] Qurandan bunları oxu: “əl-Əraf”, 205; “əl-Əhzab”, 41-42; “Ğafir”, 55; “əl-İnsan”, 25.

Axşam zikrləri aşağıdakılardır:

“əl-İxlas”, “əl-Fələq” və “ən-Nas” surələrinin hər birini üç dəfə, ardından da “Kürsü” ayəsini bir dəfə oxu, sonra bu zikrləri et:

((أَمْسَيْنَا وَأَمْسَى الْمُلْكُ لِلَّهِ وَالْحَمْدُ لِلَّهِ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، رَبِّ أَسْأَلُكَ خَيْرَ مَا فِي هَذِهِ اللَّيْلَةِ وَخَيْرَ مَا بَعْدَهَا، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا فِي هَذِهِ اللَّيْلَةِ وَشَرِّ مَا بَعْدَهَا، رَبِّ أَعُوذُ بِكَ مِنَ الْكَسَلِ وَسُوءِ الْكِبَرِ، رَبِّ أَعُوذُ بِكَ مِنْ عَذَابٍ فِي النَّارِ وَعَذَابٍ فِي الْقَبْرِ))

“Axşama çıxdıq, mülk də Allahın olaraq axşama çıxdı. Həmd Allaha məxsusdur! Allahdan başqa *ibadətə layiq* ilah yoxdur, O, təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O, hər şeyə Qadirdir! Ey Rəbbim, Səndən bu gecənin xeyrini və bundan sonrakı xeyri diləyirəm. Bu gecənin şərindən və bundan sonrakı şərdən Sənə sığınıram. Ey Rəbbim, tənbəllikdən və pis qocalıqdan Sənə sığınıram. Ey Rəbbim, Cəhənnəmdəki əzabdan və qəbirdəki əzabdan Sənə sığınıram!”[1]

((اللَّهُمَّ بِكَ أَمْسَيْنَا، وَبِكَ أَصْبَحْنَا، وَبِكَ نَحْيَا، وَبِكَ نَمُوتُ، وَإِلَيْكَ الْمَصِيرُ))

“Allahım, Sənin sayəndə axşama çıxdıq, Sənin sayəndə səhərə çıxdıq, Sənin sayəndə yaşayırıq, Sənin sayəndə ölürük! Qayıdış da Sənədir!”[2]

((اللَّهُمَّ أَنْتَ رَبِّي لاَ إِلَهَ إِلاَّ أَنْتَ، خَلَقْتَنِي وَأَنَا عَبْدُكَ، وَأَنَا عَلَى عَهْدِكَ وَوَعْدِكَ مَا اسْتَطَعْتُ، أَعُوذُ بِكَ مِنْ شَرِّ مَا صَنَعْتُ، أَبُوءُ لَكَ بِنِعْمَتِكَ عَلَيَّ، وَأَبُوءُ بِذَنْبِي، فَاغْفِرْ لِي فَإِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ))

---

[1] “Səhih Muslim”, 2723.

[2] “Sunən Əbu Davud”, 5068; “Silsilə əl-Əhadis əs-Səhihə”, 262.

“Allahım, Sən mənim Rəbbimsən. Səndən başqa *ibadətə layiq* ilah yoxdur. Məni Sən yaratdın və mən Sənin qulunam. Gücüm çatan qədər Sənə verdiyim əhdə və vədə sadiqəm. Etdiklərimin şərindən Sənə sığınıram. Mənə verdiyin neməti etiraf edirəm və günahımı boynuma alıram. Məni bağışla! Şübhəsiz ki, günahları yalnız Sən bağışlayırsan!”[1]

((اللَّهُمَّ عَافِنِي فِي بَدَنِي، اللَّهُمَّ عَافِنِي فِي سَمْعِي، اللَّهُمَّ عَافِنِي فِي بَصَرِي، لاَ إِلَهَ إِلاَّ أَنْتَ. اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْكُفْرِ، وَالْفَقْرِ، وَأَعُوذُ بِكَ مِنْ عَذَابِ الْقَبْرِ، لاَ إِلَهَ إِلاَّ أَنْتَ))

“Allahım, bədənimi salamat et! Allahım, qulağımı salamat et! Allahım, gözümü salamat et! Səndən başqa *ibadətə layiq* ilah yoxdur. Allahım, küfrdən və yoxsulluqdan Sənə sığınıram. Qəbir əzabından Sənə sığınıram. Səndən başqa *ibadətə layiq* ilah yoxdur!”[2] (*üç dəfə*).

((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي الدُّنْيَا وَالآخِرَةِ. اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي دِينِي وَدُنْيَايَ، وَأَهْلِي وَمَالِي. اللَّهُمَّ اسْتُرْ عَوْرَاتِي، وَآمِنْ رَوْعَاتِي. اللَّهُمَّ احْفَظْنِي مِنْ بَيْنِ يَدَيَّ وَمِنْ خَلْفِي، وَعَنْ يَمِينِي وَعَنْ شِمَالِي، وَمِنْ فَوْقِي، وَأَعُوذُ بِعَظَمَتِكَ أَنْ أُغْتَالَ مِنْ تَحْتِي))

“Allahım, dünyada və Axirətdə Səndən əfv və salamatlıq diləyirəm! Allahım, dinim, dünyam, ailəm və malım üçün Səndən əfv və salamatlıq diləyirəm! Allahım, eyiblərimi ört və qorxularımdan məni xatircəm et! Allahım, məni önümdən, arxamdan, sağımdan, solumdan və başımın üstündən qoru. Ayağımın altının qazılmasından Sənin əzəmətinə sığınıram!”[3]

---

[1] “Səhih əl-Buxari”, 7/150.
[2] “Sunən Əbu Davud”, 5090; “Səhih əl-Ədəb əl-Mufrad”, 701.
[3] “Sunən Əbu Davud”, 5074; “Səhih əl-Ədəb əl-Mufrad”, 465.

((اللَّهُمَّ عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ فَاطِرَ السَّمَوَاتِ وَالْأَرْضِ، رَبَّ كُلِّ شَيْءٍ وَمَلِيكَهُ، أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ أَنْتَ أَعُوذُ بِكَ مِنْ شَرِّ نَفْسِي وَمِنْ شَرِّ الشَّيْطَانِ وَشِرْكِهِ، وَأَنْ أَقْتَرِفَ عَلَى نَفْسِي سُوءًا، أَوْ أَجُرَّهُ إِلَى مُسْلِمٍ))

"Qeybdə və aşkarda olanı Bilən, göyləri və yeri *yoxdan* Yaradan Allahım, hər şeyin Rəbbi və Hökmdarı! Mən şahidlik edirəm ki, Səndən başqa *ibadətə layiq* məbud yoxdur. Nəfsimin şərindən, şeytanın şərindən və şirkindən, özümə pislik etməkdən, yaxud onu bir müsəlmana yetirməkdən Sənə sığınıram!"[1]

((بِسْمِ اللهِ الَّذِي لاَ يَضُرُّ مَعَ اسْمِهِ شَيْءٌ فِي الْأَرْضِ وَلاَ فِي السَّمَاءِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ))

"Allahın adı ilə! Hansı ki, adı çəkildikdə yerdə və göydə heç bir şey zərər verə bilməz. O, Eşidəndir, Biləndir!" (*üç dəfə*).[2]

((رَضِيتُ بِاللهِ رَبًّا، وَبِالْإِسْلاَمِ دِينًا، وَبِمُحَمَّدٍ ﷺ نَبِيًّا))

"Allahın Rəbb, İslamın din və Muhəmmədin ﷺ peyğəmbər olduğundan razıyam!" (*üç dəfə*).[3]

((يَا حَيُّ يَا قَيُّومُ بِرَحْمَتِكَ أَسْتَغِيثُ أَصْلِحْ لِي شَأْنِي كُلَّهُ وَلاَ تَكِلْنِي إِلَى نَفْسِي طَرْفَةَ عَيْنٍ))

"Ey *əbədi* Yaşayan, ey Qəyyum [kainatı yaradan və onu idarə edən, bəndələrinin işlərini yoluna qoyan və onları qoruyan]! Mərhəmətinlə kömək diləyirəm – mənim bütün işlərimi yoluna qoy, məni bir göz qırpımı belə başlı-başına buraxma!"[4]

---

[1] "Musnəd İmam Əhməd", 1/10; "Səhih əl-Ədəbul-Mufrad", 1202 və 1204.

[2] "Sunən Əbu Davud", 5088; "Səhih əl-Ədəbul-Mufrad", 660.

[3] **"Kim bunu səhər üç dəfə, axşam da üç dəfə deyərsə, Qiyamət günü onun razı salınması Allah üzərində haqq olar"** ("Musnəd İmam Əhməd", 4/337; "Sunən Əbu Davud" 4/418; "Sunən ət-Tirmizi", 5/465; "Səhih ət-Tirmizi", 3/141).

[4] "Mustədrək əl-Hakim", 2000; "Səhih ət-Tərğib vət-Tərhib", 661.

((أَمْسَيْنَا عَلَى فِطْرَةِ ٱلإِسْلاَمِ، وَعَلَى كَلِمَةِ ٱلإِخْلاَصِ، وَعَلَى دِينِ نَبِيِّنَا مُحَمَّدٍ ﷺ، وَعَلَى مِلَّةِ أَبِينَا إِبْرَاهِيمَ، حَنِيفاً مُسْلِماً وَمَا كَانَ مِنَ الْمُشْرِكِينَ ))

"İslam fitrətində, ixlas kəlməsində, Peyğəmbərimiz Muhəmmədin ﷺ dinində, hənif[1], müsəlman olan və müşriklərdən olmayan atamız İbrahimin millətində olaraq axşama çıxdıq!"[2]

((سُبْحَانَ اللهِ وَبِحَمْدِهِ))

"Allah pak və müqəddəsdir! Ona həm olsun!"[3] (*yüz dəfə*).

((أَعُوذُ بِكَلِمَاتِ اللهِ التَّامَّاتِ مِنْ شَرِّ مَا خَلَقَ))

"Yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram!" [4]

((اللَّهُمَّ صَلِّ وَ سَلِّمْ عَلَى نَبِيِّنَا مُحَمَّدٍ))

"Allahım, peyğəmbərimiz Muhəmmədə salavat və salam yetir!» (*on dəfə*)[5]

– Məğrib namazını[6] da imkan daxilində camaatla birlikdə qıl. Namazdan sonrakı zikrləri etdikdən sonra iki rükət sünnə[7] namazını qıl.

---

[1] İxlasla Allaha ibadət edən.

[2] "Musnəd İmam Əhməd", 3/407; "Silsilə əl-Əhadis əs-Səhihə", 2989.

[3] Rəsulullah ﷺ demişdir: **"Kim bunu səhər və axşam yüz dəfə desə, Qiyamət günü heç kəs onun gətirdiyindən əfzəl heç bir şey gətirə bilməz. Yalnız o şəxsdən başqa ki, o bunu onun kimi və ya ondan çox demişdir"** ("Səhih Muslim", 4/2071).

[4] **"Kim bu zikri axşam üç dəfə desə, həmin gecə ona qızdırma toxunmaz"** ("Sunən İbn Macə", 632. Bu duanın mətni İmam Muslimin "Səhih"ində də (7055) rəvayət edilmişdir).

[5] **«Kim səhər on dəfə, axşam da on dəfə mənə salavat gətirsə, Qiyamət günü şəfaətim ona çatar»**. Bu hədisi ət-Təbərani iki isnadla rəvayət etmişdir. Bu isnadlardan biri "ceyyid"dir. Bax: «Məcməuz-Zəvaid» 10/120; «Səhih ət-Tərğib vət-Tərhib», 1/273.

[6] "Səhih əl-Buxari", 559, 560; "Səhih Muslim", 612, 613, 614.

[7] "Səhih Muslim", 728.

– İşa namazını[1] da imkan daxilində camaatla birlikdə qıl. Bu namazı camaatla qılmağın ayrıca fəziləti var.[2] Namazdan sonrakı zikrləri etdikdən sonra iki rükət sünnə[3] namazını qıl.

– Nəhayət, axşam evə qayıtdıqda, qapıdan içəri daxi olduqda "bismilləh!" de,[4] sonra da ev əhlinə salam ver.[5] Bu, sənin evinin bərəkətli olması, özünün də Cənnətə daxil olmağın üçün səbəb olar.[6]

– Rəsulullah ﷺ gecə vaxtı evə gəldikdə asta səslə salam verərdi – yatanları oyatmaz, oyaq qalanlara isə bu salamı eşitdirərdi.[7]

– Rəsulullah ﷺ demişdir: **"*Gecələr* "bismilləh!" deyərək *evinin* qapısını bağla, "bismilləh!" deyərək çırağı söndür, "bismilləh!" deyərək su tuluqlarının ağzını bağla, "bismilləh!" deyərək hər nə ilə olursa-olsun, qab-qacağın ağzını ört!"**[8]

---

[1] "Səhih əl-Buxari", 117, 119; "Səhih Muslim", 638, 640.

[2] Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Əgər insanlar işa və sübh namazlarını *camaatla birgə* qılmağın *nə qədər fəzilətli* olduğunu bilsəydilər, bu namazları qılmaq üçün iməkləyə-iməkləyə də olsa *məscidə* gələrdilər"** ("Səhih əl-Buxari", 615; "Səhih Muslim", 437).

[3] "Səhih Muslim", 728.

[4] "Səhih Muslim", 2018.

[5] "ən-Nur" surəsi, 61.

[6] Rəvayət edilir ki, Ənəs ibn Malik رضي الله عنه demişdir: "Rəsulullah ﷺ mənə belə buyurmuşdur: **"Oğul bala, evə daxil olarkən əhli-əyalına salam ver ki, bu həm sənin üçün, həm də əhli-əyalın üçün bərəkət olsun!"** ("Sunən ət-Tirmizi", 2915; "Səhih ət-Tərğib vət-Tərhib", 1608). Digər hədisdə Peyğəmbər ﷺ demişdir: **"Üç *sinif* insan vardır ki, Allah onlara zamin olur. *Onlardan hansı biri* həyatda qalarsa, Allah ona ruzi verər və onu qoruyar, ölərsə, onu Cənnətə daxil edər: kim öz evinə daxil olarkən salam verərsə, Allah ona zamin olar; kim məscidə gedərsə, Allah ona zamin olar; və bir də kim Allah yolunda cihada çıxarsa, Allah ona zamin olar"** ("Sunən Əbu Davud", 2494; "Səhih ət-Tərğib vət-Tərhib", 321).

[7] "Səhih Muslim", 8/128.

[8] "Səhih əl-Buxari", 3280. Başqa bir rəvayətdə Rəsulullah ﷺ demişdir: **"Qab-qacağın üstünü örtün və su tuluqlarının ağzını bağlayın! Çünki ildə bir gecə vardır ki, həmin gecə vəba xəstəliyi Yer üzünə enir, sonra da üstündən keçdiyi elə bir ağzı açıq tuluq və elə bir üstü açıq qab qalmır ki, onun içinə girmiş olmasın"** (Səhih Muslim, 6/107).

– İşa namazından əvvəl yatmaq və bu namazdan sonra söhbət etmək bəyənilmir. Lakin istisna hallar ola bilər.[1]

– Yatmazdan əvvəl “əl-Mulk” və “əs-Səcdə” surələrini oxumaq müstəhəbdir.[2]

– Yatmağa getdikdə paltarını soyunarkən de:

((بِسْمِ اللهِ))

“Allahın adı ilə!”[3]

– Yatağına uzanmaq istədikdə paltarının iç tərəfi ilə yatağını çırp. Çünki sən özündən sonra yatağına nəyin girdiyini bilmirsən.[4]

– Peyğəmbər ﷺ hər gecə yatağına girdikdə əllərini cütləşdirib onların içinə üfürər, sonra ora “əl-İxlas”, “əl-Fələq” və “ən-Nas” surələrini oxuyar, sonra da əllərini baş və üz nahiyəsindən başlayaraq,

---

[1] “Səhih əl-Buxari”, 547; “Səhih Muslim”, 647.

İşa namazından əvvəl yatmağın bəyənilməməsi ona görədir ki, adam səhlənkarlıq edib bu namazı əfzəl vaxtında qılmayıb zəruri vaxtına qədər yubatmasın, ya da yatıb qalmaqla camaat namazını buraxmasın. Bu namazdan sonra oturub söhbət etməyə gəlincə, bu söhbət o qədər uzana bilər ki, nəhayət, adam gecə namazını buraxar və ya yorğun halda yatıb sübh namazını buraxa bilər. Qeyd etmək lazımdır ki, burada “söhbət” deyildikdə faydasız söhbətlər nəzərdə tutulur. Yoxsa, işa namazından sonra elmlə məşğul olmaq, dini məsələləri müzakirə etmək və başqa bu kimi faydalı söhbətlər etmək, xüsusilə də ailə ilə oturub maraqlı söhbətlər etmək, habelə qonaq qəbul etmək, toya hazırlıq görmək, cənazəni dəfn edilməyə hazırlamaq, müsafiri yola salmaq və başqa bu kimi faydalı işləri görmək icazəldir. Sadəcə olaraq, bu işləri gördükdə bərkdən danışıb qonşuda yatan insanları narahat etmək olmaz. Bu xüsusda bir çox səhih hədislər varid olmuşdur.

[2] “Sunən ət-Tirmizi”, 2892; “Silsilə əl-Əhadis əs-Səhihə”, 858. **“Kim hər gecə “əl-Mulk” surəsini oxusa, Allah bu surə sayəsində onu qəbir əzabından qoruyar”** (“Sunən ən-Nəsai əl-Kubra”, 10479; “Səhih ət-Tərğib vət-Tərhib”, 1589).

[3] Peyğəmbər ﷺ demişdir: **“Cinlərin gözləri ilə insanların ayıb yerləri arasına çəkilən örtük, birinizin paltarını soyunarkən “bismilləh!” deməsidir.”** (“Səhih əl-Cami”, 3610).

[4] “Səhih əl-Buxari”, 6320.

bacardığı qədər bədəninin hər yerinə sürtərdi. Beləcə, o, bunu üç dəfə təkrar edərdi”[1]

– Sonra bu iki ayəni[2] oxu:

﴿ءَامَنَ ٱلرَّسُولُ بِمَآ أُنزِلَ إِلَيۡهِ مِن رَّبِّهِۦ وَٱلۡمُؤۡمِنُونَۚ كُلٌّ ءَامَنَ بِٱللَّهِ وَمَلَٰٓئِكَتِهِۦ وَكُتُبِهِۦ وَرُسُلِهِۦ لَا
نُفَرِّقُ بَيۡنَ أَحَدٖ مِّن رُّسُلِهِۦۚ وَقَالُواْ سَمِعۡنَا وَأَطَعۡنَاۖ غُفۡرَانَكَ رَبَّنَا وَإِلَيۡكَ ٱلۡمَصِيرُ ٢٨٥ لَا يُكَلِّفُ
ٱللَّهُ نَفۡسًا إِلَّا وُسۡعَهَاۚ لَهَا مَا كَسَبَتۡ وَعَلَيۡهَا مَا ٱكۡتَسَبَتۡۗ رَبَّنَا لَا تُؤَاخِذۡنَآ إِن نَّسِينَآ أَوۡ أَخۡطَأۡنَاۚ
رَبَّنَا وَلَا تَحۡمِلۡ عَلَيۡنَآ إِصۡرٗا كَمَا حَمَلۡتَهُۥ عَلَى ٱلَّذِينَ مِن قَبۡلِنَاۚ رَبَّنَا وَلَا تُحَمِّلۡنَا مَا لَا طَاقَةَ لَنَا بِهِۦۖ
وَٱعۡفُ عَنَّا وَٱغۡفِرۡ لَنَا وَٱرۡحَمۡنَآۚ أَنتَ مَوۡلَىٰنَا فَٱنصُرۡنَا عَلَى ٱلۡقَوۡمِ ٱلۡكَٰفِرِينَ ٢٨٦﴾

**“*Allahın* rəsulu öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də *iman gətirdilər*. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər. *Onlar dedilər*: “Biz Onun elçiləri arasında fərq qoymuruq!” *Həmçinin,* dedilər: “Eşitdik və itaət etdik! Ey Rəbbimiz, Səndən bağışlanma diləyirik, dönüş də yalnız Sənədir!” Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı *xeyir yalnız* onun öz lehinə, qazandığı *şər də yalnız* öz əleyhinədir. “Ey Rəbbimiz, unutsaq və ya xəta etsək, bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yüklə yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə daşıtdırma! Bizi əfv et, bizi bağışla, bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafir qövmə *qalib gəlməkdə* bizə yardım et!”[3]**

---

[1] “Səhih əl-Buxari”, 5017.

[2] Rəsulullah ﷺ demişdir: **“Kim gecə “əl-Bəqərə” surəsinin son iki ayəsini oxuyarsa, bu, ona kifayət edər”** (“Səhih əl-Buxari”, 4008; “Səhih Muslim”, 807). Bu iki ayə gecə namazına yatıb qalan adam üçün onu əvəz edər, yaxud bu ayələr insanı şeytandan və başqa bu kimi xəbislərin şərindən qoruyar. (“Şərh ən-Nəvəvi”).

[3] “əl-Bəqərə” surəsi, 285-286.

– Sonra "Kürsü" ayəsini də bir dəfə oxu. Bu ayəni oxusan, səhər yuxudan oyananadək sənin yanında Allahın təyin etdiyi gözətçi bir mələk durar və şeytan sənə yaxınlaşmaz.[1]

Bu ayələri yatağında oturulu və ya uzanmış vəziyyətdə oxuya bilərsən.

– Sonra aşağıdakı zikrləri et:

((بِاسْمِكَ رَبِّ وَضَعْتُ جَنْبِي وَبِكَ أَرْفَعُهُ إِنْ أَمْسَكْتَ نَفْسِي فَارْحَمْهَا وَإِنْ أَرْسَلْتَهَا فَاحْفَظْهَا بِمَا تَحْفَظُ بِهِ عِبَادَكَ الصَّالِحِينَ))

"Ey Rəbbim, Sənin adınla böyrümü yerə qoydum, Sənin sayəndə də onu qaldırıram. Ruhumu tutub saxlasan, ona rəhm et, onu buraxsan, əməlisaleh qullarını qoruduğun kimi, onu da qoru!"[2]

Otuz üç dəfə "Subhanəllah!", otuz üç dəfə "Əlhəmdulilləh!" və otuz dörd dəfə "Allahu Əkbər!" de.[3]

((اللَّهُمَّ إِنَّكَ خَلَقْتَ نَفْسِى وَأَنْتَ تَوَفَّاهَا لَكَ مَمَاتُهَا وَمَحْيَاهَا إِنْ أَحْيَيْتَهَا فَاحْفَظْهَا وَإِنْ أَمَتَّهَا فَاغْفِرْ لَهَا اللَّهُمَّ إِنِّى أَسْأَلُكَ الْعَافِيَةَ))

"Allahım, canımı Sən yaratdın, Sən də onu alacaqsan. Onu öldürmək də, diriltmək də Sənə məxsusdur. Onu diriltsən, qoru, öldürsən, bağışla! Allahım, Səndən salamatlıq diləyirəm!"[4]

((بِاسْمِكَ اللَّهُمَّ أَمُوتُ وَأَحْيَا))

"Allahım, Sənin adınla ölür və dirilirəm!"[5]

---

[1] "Səhih əl-Buxari", 2311.

[2] "Səhih əl-Buxari", 6320.

[3] "Səhih əl-Buxari", 3705; "Səhih Muslim", 2727.

[4] "Səhih Muslim", 2712; "Musnəd İmam Əhməd", 2/79. Bu, İmam Əhmədin ﷺ rəvayət etdiyi mətndir.

[5] "Səhih əl-Buxari", 6312. "Səhih Muslim", 2711.

((اللَّهُمَّ قِنِي عَذَابَكَ يَوْمَ تَبْعَثُ عِبَادَكَ))

"Allahım, bəndələrini dirildəcəyin gün məni Öz əzabından qoru!"[1]

((اللَّهُمَّ عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ فَاطِرَ السَّمَوَاتِ وَالْأَرْضِ، رَبَّ كُلِّ شَيْءٍ وَمَلِيكَهُ، أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ أَنْتَ أَعُوذُ بِكَ مِنْ شَرِّ نَفْسِي وَمِنْ شَرِّ الشَّيْطَانِ وَشِرْكِهِ، وَأَنْ أَقْتَرِفَ عَلَى نَفْسِي سُوءًا، أَوْ أَجُرَّهُ إِلَى مُسْلِمٍ))

"Qeybdə və aşkarda olanı Bilən, göyləri və yeri *yoxdan* Yaradan Allahım, hər şeyin Rəbbi və Hökmdarı! Mən şahidlik edirəm ki, Səndən başqa *ibadətə layiq* məbud yoxdur. Nəfsimin şərindən, şeytanın şərindən və şirkindən, özümə pislik etməkdən, yaxud onu bir müsəlmana yetirməkdən Sənə sığınıram!"[2]

((اللَّهُمَّ رَبَّ السَّمَوَاتِ السَّبْعِ وَرَبَّ الْعَرْشِ الْعَظِيمِ، رَبَّنَا وَرَبَّ كُلِّ شَىْءٍ، فَالِقَ الْحَبِّ وَالنَّوَى، وَمُنْزِلَ التَّوْرَاةِ وَالإِنْجِيلِ وَالْفُرْقَانِ، أَعُوذُ بِكَ مِنْ شَرِّ كُلِّ شَىْءٍ أَنْتَ آخِذٌ بِنَاصِيَتِهِ، اللَّهُمَّ أَنْتَ الأَوَّلُ فَلَيْسَ قَبْلَكَ شَىْءٌ، وَأَنْتَ الآخِرُ فَلَيْسَ بَعْدَكَ شَىْءٌ، وَأَنْتَ الظَّاهِرُ فَلَيْسَ فَوْقَكَ شَىْءٌ، وَأَنْتَ الْبَاطِنُ فَلَيْسَ دُونَكَ شَىْءٌ، اقْضِ عَنَّا الدَّيْنَ وَأَغْنِنَا مِنَ الْفَقْرِ))

"Allahım, yeddi qat səmanın Rəbbi, böyük Ərşin Rəbbi, bizim Rəbbimiz və hər bir şeyin Rəbbi! Toxumu və çəyirdəyi cücərdib çatladan, Tövratı, İncili və Furqanı nazil edən *Allahım*! Kəkilindən tutduğun (idarə etdiyin) hər bir şeyin şərindən Sənə sığınıram. Allahım, Sən Əvvəlsən, Səndən əvvəl heç nə yoxdur. Sən Axırsan, Səndən sonra heç nə yoxdur. Sən Zahirsən, Səndən üstə heç nə yoxdur. Sən Batinsən, Səndən iç üzdə heç nə yoxdur! Borcumuzu ödə və bizi yoxsulluqdan qurtar!"[3]

---

1 "Sunən Əbu Davud", 4/311; "Səhih əl-Ədəb əl-Mufrad", 1215.
2 "Sunən ət-Tirmizi", 3389; "Səhih əl-Ədəb əl-Mufrad", 1202.
3 "Səhih Muslim", 2713.

((لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ
لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ سُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ وَاللَّهُ أَكْبَرُ ))

"Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O, təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Onadır və O, hər şeyə Qadirdir. Qüdrət və güc yalnız Allaha aiddir! Allah pak və müqəddəsdir. Həmd Allaha məxsusdur. Allahdan başqa *ibadətə layiq* məbud yoxdur. Allah ən Böyükdür."[1]

((الْحَمْدُ لِلَّهِ الَّذِى أَطْعَمَنَا وَسَقَانَا وَكَفَانَا وَآوَانَا فَكَمْ مِمَّنْ لاَ كَافِىَ لَهُ وَلاَ مُئْوِىَ))

"Bizi yedirdən, içirdən, qoruyan və bizə sığınacaq verən Allaha həmd olsun! Neçə-neçə şəxslər vardır ki, onların nə bir qoruyanı, nə də bir sığınacaq verəni var!"[2]

((الْحَمْدُ لِلَّهِ الَّذِي كَفَانِي وَآوَانِي، الْحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمْنِي وَسَقَانِي، الْحَمْدُ لِلَّهِ الَّذِي
مَنَّ عَلَيَّ وَأَفْضَلَ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ بِعِزَّتِكَ أَنْ تُنَجِّيَنِي مِنَ النَّارِ))

"Məni qoruyan və mənə sığınacaq verən Allaha həmd olsun! Məni yedirdən və məni içirdən Allaha həmd olsun! Mənə iltifat və mərhəmət göstərən Allaha həmd olsun! Allahım, Sənin izzətinlə Sənə yalvarıram ki, məni Cəhənnəm odundan qoruyasan!"[3]

((بِسْمِ اللهِ وَضَعْتُ جَنْبِي اللَّهُمَّ اغْفِرْ لِي ذَنْبِي، وَأَخْسِئْ شَيْطَانِي، وَفُكَّ رِهَانِي،
وَاجْعَلْنِي فِي النَّدِيِّ الأَعْلَى))

---

[1] **"Kim yatağına uzandıqda bu zikri etsə, Allah onun günahlarını, – bu günahlar dənizdəki köpüklər qədər olsa belə, bağışlayar"** ("Səhih İbn Hiban", 2365; "Silsilə əl-Əhadis əs-Səhihə", 3414.

[2] "Səhih Muslim", 2715.

[3] **"Kim yatağına uzandıqda bu zikri etsə, yaradılanların hamısının dediyi təriflərlə Allaha həmd etmiş olar"** ("Mustədrək əl-Hakim", 1/545-546; "Səhih ət-Tərğib vət-Tərhib", 609).

“Allahın adı ilə böyrümü yerə qoydum. Allahım, mənim günahımı bağışla, şeytanımın rədd olub getməsində və borcumu ödəməkdə mənə yardım et, və məni uca dostların cərgəsinə daxil et!”[1]

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

﴿قُلْ يَا أَيُّهَا الْكَافِرُونَ ۝١ لَا أَعْبُدُ مَا تَعْبُدُونَ ۝٢ وَلَا أَنْتُمْ عَابِدُونَ مَا أَعْبُدُ
۝٣ وَلَا أَنَا عَابِدٌ مَا عَبَدْتُمْ ۝٤ وَلَا أَنْتُمْ عَابِدُونَ مَا أَعْبُدُ ۝٥ لَكُمْ دِينُكُمْ وَلِيَ دِينِ ۝٦﴾

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

**“De: “Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim də mənədir!”**[2]

((اللَّهُمَّ أَسْلَمْتُ نَفْسِي إِلَيْكَ، وَوَجَّهْتُ وَجْهِي إِلَيْكَ، وَفَوَّضْتُ أَمْرِي إِلَيْكَ، وَأَلْجَأْتُ ظَهْرِي إِلَيْكَ، رَغْبَةً وَرَهْبَةً إِلَيْكَ، لاَ مَلْجَأَ وَلاَ مَنْجَا مِنْكَ إِلاَّ إِلَيْكَ، اللَّهُمَّ آمَنْتُ بِكِتَابِكَ الَّذِي أَنْزَلْتَ، وَبِنَبِيِّكَ الَّذِي أَرْسَلْتَ))

“Allahım, Sənə ümid edərək və Səndən qorxaraq canımı Sənə təslim etdim, işimi Sənə həvalə etdim, üzümü Sənə çevirdim, kürəyimi Sənə etibar etdim. Sığınacaq və Sənin əzabından xilas olmaq üçün nicat yeri yalnız Sənə yönəlməkdir. Sənin nazil etdiyin Kitaba və göndərdiyin Peyğəmbərə iman gətirdim!”[3]

---

[1] “Sunən Əbu Davud”, 5054; “Səhih əl-Cami”, 4649.

[2] “əl-Kafirun” surəsi. Peyğəmbər ﷺ demişdir: **“Heç şübhəsiz ki, bu surə səni şirkdən uzaq tutar”** (“Sunən Əbu Davud”, 5055; “Səhih əl-Cami”, 1161).

[3] Peyğəmbər ﷺ demişdir: **“Əgər həmin gecə dünyadan köçsən, fitrət üzərində** (heç bir günahı olmadan, anadan doğulmuş uşaq kimi) **dünyadan köçmüş sayılarsan. Qoy, bu söz sənin *yatmazdan əvvəl dediyin* son söz olsun”** (“Səhih əl-Buxari”, 6315; “Səhih Muslim”, 2081.).

– Yatanda dəstəmazlı olmağın sünnəyə müvafiqdir.[1]

– Yatanda sağ böyrü üstə yat və əlini sağ yanağının altına qoy. Bu şəkildə yatmaq daha əfzəldir.[2] Qeyd edək ki, arxası üstə və ya sol böyür üstə yatmaq da icazəlidir.[3] Üzüqoylu yatmaq isə bəyənilməyən əməllərdəndir.[4]

– Sonra qalx, gecə namazını qıl.

Peyğəmbər ﷺ və onun səhabələri رضي الله عنهم gecənin ya əvvəlində, ya ortasında, ya da axırında namaz qılardırlar.[5]

Bu namazı ən azı bir rükət qılmaq icazəlidir. Bundan artıq qılmaq istəyən adam iki rükət-iki rükət olmaqla, istədiyi qədər gecə namazı qıla bilər.[6]

Peyğəmbər ﷺ gecə namazını həmişə on bir rükət qılardı.[7]

---

[1] "Səhih əl-Buxari", 6315; "Səhih Muslim", 2081.

[2] "Musnəd İmam Əhməd", 4/281; Tirmizi, "Şəmail ən-Nəbi", 254.

[3] "Səhih əl-Buxari", 5724; "Səhih Muslim", 2100.

[4] Rəvayət edilir ki, Tixfə ibn Qeys əl-Ğifari رضي الله عنه demişdir: "*Bir dəfə* mən gecənin axır vaxtında məsciddə üzüqoylu yatdığım zaman, bir nəfər gəlib ayağı ilə məni silkələyib dedi: **"Qalx! Bu cür uzanmağa Allah nifrət edər."** Mən başımı qaldırıb Peyğəmbərin ﷺ başımın üstündə dayandığını gördüm" ("Ədəb əl-Mufrəd", 1187). Digər rəvayətdə Peyğəmbər ﷺ demişdir: **"Bu elə bir uzanmaqdır ki, Allah onu sevməz"** ("Səhih əl-Cami", 2270). "Yalnız zəruri halda üzüqoylu uzanmaq icazəlidir" (Muhəmməd ibn Saleh əl-Üseymin, "Şərh Riyad əs-Salihin", 824-cü hədisin şərhi).

[5] **"Gecənin bir vaxtı oyanıb, sənə nafilə olaraq *buyrulmuş təhəccüd* namazını qıl"** ("əl-İsra" surəsi, 79); **"Həqiqətən, Rəbbin bilir ki, sən və səninlə olan *səhabələrin* bir qismi *bəzən* gecənin üçdə ikisinə yaxın qismini, *bəzən* yarısını, *bəzən də* üçdə birini *ibadət üçün* durursunuz."** ("əl-Muzzəmmil" surəsi, 20); **"Ayələrimizə ancaq o kəslər iman gətirirlər ki, ayələrimiz onlara xatırlanarkən təkəbbür göstərmədən səcdəyə qapanır, Rəbbinə həmd-səna ilə təriflər deyirlər. Onlar *gecə namazını qılmaq üçün* böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən *Allah yolunda* xərcləyirlər"** ("əs-Səcdə" surəsi, 15-16).

[6] "Musnəd İmam Əhməd", 4/387; "Silsilə əl-Əhadis əs-Səhihə", 1919.

[7] "Səhih əl-Buxari", 994, 1147; "Səhih Muslim", 736.

– Gecə namazlarında bacardığın qədər çox ayə oxu.[1]

– Gecə namazlarının sonuncusu olan vitr namazını qılıb salamları verdikdən sonra üç dəfə de:

((سُبْحَانَ الْمَلِكِ الْقُدُّوسِ))

"Müqəddəs Hökmdar pak və nöqsansızdır!"[2]– və üçüncüsünü deyəndə səsini bir qədər qaldır və zikri uzat. Sonra davam et və de:

((رَبِّ الْمَلاَئِكَةِ وَالرُّوحِ))

"Mələklərin və ruhun (Cəbrailin) Rəbbi!"[3]

---

[1] Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Kim gecə namazında on ayə oxusa, qafillərdən sayılmaz, yüz ayə oxusa, itaətkarlardan hesab olunar və nəhayət, min ayə oxusa, olduqca çox savab qazanar"** ("Sunən Əbu Davud", 1/221; "Silsilə əl-Əhadis əs-Səhihə", 642).

[2] "Sunən Əbu Davud", 1430; "Səhih Əbu Davud", 1284.

[3] "Sunən əd-Daraqutni", 8115.

# Gündəlik yerinə yetirilən əməllərin ən fəzilətlisi

Əziz müsəlmanlar! Bu kiçik risaləni oxuduqda, biz Peyğəmbərimizin ﷺ bir çox saleh əməlləri gündəlik olaraq necə davamlı yerinə yetirdiyinin şahidi oluruq. Peyğəmbər ﷺ Allaha ibadət etməyi, ələlxüsus da namaz qılmağı, Quran oxumağı, zikr və dua etməyi, habelə, insanların haqlarını ödəməyi və onlarla gözəl rəftar etməyi sevirdi. Lakin bu əməllər arasında ən çox sevdiyi namaz qılmaq idi. Çünki bu əzəmətli əməli yerinə yetirən kimsəni Allah sevir. Səhih hədisdə xəbər verilir ki, səhabə Peyğəmbərdən ﷺ: “Allahın ən çox sevdiyi əməl hansıdır?”– deyə soruşduqda, o ﷺ belə cavab vermişdir: **“Namazı öz vaxtında qılmaq.”**[1] Digər hədisdə o ﷺ namazı necə çox sevdiyini bildirmək üçün: **“Gözümün ağı-qarası olan namaz”**[2] demişdir.

Qeyd edək ki, təkcə Muhəmməd peyğəmbər ﷺ deyil, peyğəmbərlərin hamısı və onların ardıcılları da namaz qılıblar.[3] Belə ki, uca Allah insanları və cinləri məhz Ona ibadət etmək üçün yaradıb. Bu xüsusda Quranda belə buyurulur: **“Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım.”**[4]

Demək, Allahın sevimlisi olmaq və peyğəmbərlərə عليهم السلام oxşamaq üçün gündəlik olaraq beş vaxtda namaz qılmaq lazımdır.

Peyğəmbərimiz ﷺ ömrünün sonunadək namazlarını vaxtlı-vaxtında və doğru-düzgün şəkildə yerinə yetirmişdir. Xəstə olduqda belə heç bir namazı buraxmamışdır. Ömrünün son üç günündə belə, ölüm yatağında olmasına baxmayaraq, namazlarını qılmışdır.

---

[1] “Səhih əl-Buxari”, 5970; “Səhih Muslim”, 139.

[2] “Musnəd İmam Əhməd”, 3/128; “Səhih əl-Cami”, 3124.

[3] Qurana bax: (“Ali-İmran”, 39; “Yunus”, 87; “Hud”, 84-87; “İbrahim”, 37; “Məryəm”, 30-31, 54-55, 58-59; “Ta ha”, 12-14, 132; “əl-Ənbiya”, 72-73; “əs-Saffat”, 143-144; “Sad”, 24, 30-33).

[4] “əz-Zariyat” surəsi, 56.

Namaz qılmayanların və ya qılıb sonra onu tərk edənlərin isə Qiyamət günü aqibəti çox pis olacaq. Bu xüsusda Quranda xəbər verilir ki, günahkarlardan: **"Sizi Cəhənnəmə salan nədir?"– deyə soruşulduqda, onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik."**[1] Ayədən aydın başa düşülür ki, namaz qılmayan adam bu böyük günaha görə cəzasını çəkəcək. Hədisdə Peyğəmbər ﷺ belə xəbər vermişdir: **"Namaz qılmayan kimsənin Qiyamət günü nə bir nuru, nə bir dəlili, nə də ki nicat tapmaq üçün bir qurtuluş yolu olacaq. Beləsi Qiyamət günü Qarunla, Fironla, Hamanla və Ubey ibn Xələf ilə bir yerdə həşr olunacaq."**[2]

Odur ki, əziz müsəlmanlar, namazınıza diqqət edin, onu sevə-sevə yerinə yetirin ki, Allah da sizi sevsin. Ömrünüzün sonunadək namaz qılmaqda sabit qalmağınız üçün Allah dua edin! İki möhtərəm peyğəmbərin bizə öyrətdiyi dua ilə Allaha yalvarın:

﴿رَبِّ ٱجۡعَلۡنِي مُقِيمَ ٱلصَّلَوٰةِ وَمِن ذُرِّيَّتِيۚ رَبَّنَا وَتَقَبَّلۡ دُعَآءِ * رَبَّنَا ٱغۡفِرۡ لِي وَلِوَٰلِدَيَّ وَلِلۡمُؤۡمِنِينَ يَوۡمَ يَقُومُ ٱلۡحِسَابُ﴾

**"Ey Rəbbim, məni və nəslimdən olanları *doğru-düzgün* namaz qılan et! Ey Rəbbimiz, duamı qəbul elə! Ey Rəbbimiz, haqq-hesab çəkilən günü məni, valideynlərimi və möminləri bağışla!"**[3]

((اللَّهُمَّ يَا مُقَلِّبَ الْقُلُوبِ، ثَبِّتْ قَلْبِي عَلَى دِينِكَ))

**"Ey qəlbləri çevirən Allahım, qəlbimi dinin üzərində sabit et."**[4]

---

[1] "əl-Muddəssir" surəsi, 41-43.
[2] "Musnəd İmam Əhməd", 2/169.
[3] "İbrahim" surəsi, 40-41. Bu İbrahim peyğəmbərin عليه السلام duasıdır.
[4] "Sunən ət-Tirmizi", 3517; "Silsilə əl-Əhadis əs-Səhihə", 2091.

# İxlassız[1] əməl qəbul olunmur!

Əziz müsəlmanlar! Hamınıza məlumdur ki, əməllərin qəbul olması niyyətə[2] bağlıdır. Niyyət səmimi olmadıqda, yəni yerinə yetiriləcək əməl Allah rizasını qazanmaq üçün olmadıqda, o əməl qəbul olmur. Allah yalnız ixlasla yerinə yetirilən əməli qəbul edir. Bu xüsusda Quranda belə buyurulur:

**“Halbuki onlara, dini məhz Allaha məxsus edərək ibadət etmək əmr olunmuşdu.”**[3]

**“Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan *Allahdır.*”**[4]

Peyğəmbər ﷺ də belə demişdir: **“Əməllər ancaq niyyətlərə görədir. Hər kəsə yalnız niyyət etdiyi şey qalacaqdır.”**[5]

Burada **“əməllər”** deyildikdə, əməlin hər üç növü nəzərdə tutulur. Yəni, qəlbdən keçən, dillə deyilən və bədən əzaları ilə yerinə yetirilən əməllər. Rəvayət edilir ki, Fudeyl ibn İyad رحمه الله bu ayəni izah edib demişdir: “Əməl baxımından daha yaxşı olanınız” yəni daha səmimi və daha doğru olanınız. Ondan: “Daha səmimi və doğru olanı nədir?”– deyə soruşulduqda, o belə cavab vermişdir: “Əgər əməldə səmimiyyət olarsa, lakin doğruluq olmazsa, o, qəbul olunmaz. Həmçinin, əgər əməldə doğruluq olarsa, lakin səmimiyyət olmazsa, o, yenə qəbul olunmaz. Əməl yalnız o təqdirdə qəbul olar ki, onda səmimiyyət və doğruluq olsun. “Səmimi əməl” deyildikdə, Allah üçün yerinə yetirilən əməl, “doğru əməl” deyildikdə isə Sünnəyə uyğun olan əməl nəzərdə tutulur.”[6]

---

[1] “əl-Bəyyinə” surəsi, 5.

[2] Doğru niyyət, istənilən bir ibadəti Allah üçün yerinə yetirməyi qəsd etməkdir; yeri də qəlbdədir, yəni onu tələffüz etməyə gərək yoxdur.

[3] “əl-Bəyyinə” surəsi, 5.

[4] “əl-Mulk” surəsi, 2.

[5] “Səhih əl-Buxari”, 1; “Səhih Muslim”, 1907.

[6] “Təfsir əl-Bəğəvi”; “Təfsir əs-Sədi”.

Deməк, istənilən əməlin qəbul olunması üçün o əməldə iki şərtin olması vacibdir: ixlas və Sünnəyə müvafiqlik.

İxlassız əməlin qəbul olunmamasına aşağıdakı ayələri dəlil göstərmək olar:

«(Ey Muhəmməd!) **Sənə və səndən əvvəlki *peyğəmbərlərə* belə vəhy olunmuşdur: "Əgər *Allaha* şərik qoşsan, əməlin puç olar və mütləq ziyana uğrayanlardan olarsan."**»[1]

**"Əgər *Allaha* şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı."**[2]

Sünnəyə müvafiq olmayan əməlin qəbul olunmamasına aşağıdakı hədisləri dəlil göstərmək olar:

**"Kim özünü göstərmək niyyəti ilə namaz qılar, yaxud oruc tutar və ya sədəqə verərsə, Allaha şərik qoşmuş olar."**[3]

**"Kim bizim bu dinimizə aid olmayan bir yeniliyi ona əlavə edərsə, o yenilik rədd edilər."**[4]

**"Əməllərin ən pisi *dinə əlavə edilən* yeniliklərdir. Hər bir yenilik bidətdir, hər bir bidət zəlalətdir**[5] **və hər bir zəlalət Cəhənnəm oduna *aparan bir* səbəbdir."**[6]

**"Kim bizim dinimizdə olmayan bir əməli edərsə, bu əməl rədd edilər."**[7]

**"Mənim yolumdan çıxan kimsələr məndən deyildirlər."**[8]

Peyğəmbərin ﷺ yolundan kənara çıxan kimsəni isə Cəhənnəm əzabı gözləyir:

---

[1] "əz-Zumər" surəsi, 65.
[2] "əl-Ənam" surəsi, 88.
[3] "Musnəd İmam Əhməd", 4/125; "Musnəd əl-Bəzzar", 8/407.
[4] "Səhih əl-Buxari", 2697; "Səhih Muslim", 1718.
[5] "Mocəmul-Kəbir", 18/248/623; "Silsilə əl-Əhadis əs-Səhihə", 2735.
[6] Sunən ən-Nəsai, 1/243; Xutbatul-Hacə, 1/25.
[7] "Səhih Muslim", 1718.
[8] "Səhih əl-Buxari", 5063.

**“Peyğəmbərin əmrinə müxalif olanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar.”[1]**

**“Kim özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxıb möminlərin yolundan ayrı bir yolla gedərsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmə giriftar edərik. Ora nə pis dönüş yeridir.”[2]**

Əməllərimizin ixlaslı olmasını istəyiriksə, Peyğəmbərin ﷺ öz ümmətinə öyrətdiyi bu dua ilə hər gün Allaha dua etməliyik:

((اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ أَنْ أُشْرِكَ بِكَ وَأَنَا أَعْلَمُ، وَأَسْتَغْفِرُكَ لِمَا لا أَعْلَمُ))

**“Allahım, bilərəkdən Sənə şərik qoşmaqdan Sənə sığınıram və bilməyib etdiyim *şirkə*[3] görə Səndən bağışlanma diləyirəm.”[4]**

1 “ən-Nur” surəsi, 63.

2 “ən-Nisa” surəsi, 115.

3 Burada “bilərəkdən” deyildikdə, aşkarda edilən şirk, “bilməyib etdiyim” deyildikdə isə gizli şirk (riya) nəzərdə tutulur. Adamın hər hansı bir ibadəti özünü insanlara göstərmək, yaxud bunu onlara eşitdirmək, yaxud bunun sayəsində şan-şöhrət qazanmaq, yaxud da bunun müqabilində dünya malı əldə etmək məqsədilə yerinə yetirməsi gizli şirk sayılır.

4 “Səhih əl-Ədəb əl-Mufrad”, 716.

# Quran və Sünnədən seçilmiş dualar

Əziz müsəlmanlar! Allahın və Onun Rəsulunun ﷺ bizə öyrətdiyi dualarla Allaha dua edək ki, O, bizi davamlı olaraq saleh əməlləri yerinə yetirməyə müvəffəq etsin!

﴿رَبِّ ٱجۡعَلۡ هَٰذَا ٱلۡبَلَدَ ءَامِنٗا وَٱجۡنُبۡنِي وَبَنِيَّ أَن نَّعۡبُدَ ٱلۡأَصۡنَامَ﴾

**“Ey Rəbbim! Bu şəhəri əmin-amanlıq *yurdu* et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaq sal.”[1]**

﴿رَبِّ ٱجۡعَلۡنِي مُقِيمَ ٱلصَّلَوٰةِ وَمِن ذُرِّيَّتِيۚ رَبَّنَا وَتَقَبَّلۡ دُعَآءِ رَبَّنَا ٱغۡفِرۡ لِي وَلِوَٰلِدَيَّ وَلِلۡمُؤۡمِنِينَ يَوۡمَ يَقُومُ ٱلۡحِسَابُ﴾

**“Ey Rəbbim, məni də, nəslimdən olanları da namaz qılan et! Ey Rəbbimiz, duamı qəbul elə! Ey Rəbbimiz, haqq-hesab günü məni, valideynlərimi və möminləri bağışla!”[2]**

﴿رَبِّ هَبۡ لِي حُكۡمٗا وَأَلۡحِقۡنِي بِٱلصَّٰلِحِينَ وَٱجۡعَل لِّي لِسَانَ صِدۡقٖ فِي ٱلۡأٓخِرِينَ وَٱجۡعَلۡنِي مِن وَرَثَةِ جَنَّةِ ٱلنَّعِيمِ﴾

**“Ey Rəbbim, mənə hikmət ver və məni əməlisalehlərə qovuşdur! Sonra gələnlər arasında *həmişə yad edilim deyə,* mənə yaxşı ad qismət elə! Məni Nəim bağının varislərindən et!”[3]**

﴿فَاطِرَ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِ أَنتَ وَلِيِّۦ فِي ٱلدُّنۡيَا وَٱلۡأٓخِرَةِۖ تَوَفَّنِي مُسۡلِمٗا وَأَلۡحِقۡنِي بِٱلصَّٰلِحِينَ﴾

---

[1] “İbrahim” surəsi, 35.

[2] “İbrahim” surəsi, 40-41.

[3] “əş-Şuəra” surəsi, 83-85.

**“Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman olduğum halda al və məni əməlisalehlərə qovuşdur!”[1]**

﴿رَبِّ أَوْزِعْنِىٓ أَنْ أَشْكُرَ نِعْمَتَكَ ٱلَّتِىٓ أَنْعَمْتَ عَلَىَّ وَعَلَىٰ وَٰلِدَىَّ وَأَنْ أَعْمَلَ صَٰلِحًا تَرْضَىٰهُ
وَأَدْخِلْنِى بِرَحْمَتِكَ فِى عِبَادِكَ ٱلصَّٰلِحِينَ﴾

**“Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməl etmək üçün ilham ver və məni öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!”[2]**

﴿رَبَّنَآ ءَاتِنَا مِن لَّدُنكَ رَحْمَةً وَهَيِّئْ لَنَا مِنْ أَمْرِنَا رَشَدًا﴾

**“Ey Rəbbimiz, bizə Öz tərəfindən mərhəmət bəxş et və işimizdə bizə düz yol göstər!”[3]**

﴿رَبَّنَا لَا تُزِغْ قُلُوبَنَا بَعْدَ إِذْ هَدَيْتَنَا وَهَبْ لَنَا مِن لَّدُنكَ رَحْمَةً ۚ إِنَّكَ أَنتَ ٱلْوَهَّابُ﴾

**“Ey Rəbbimiz! Bizi doğru yola yönəltdikdən sonra qəlbimizi sapdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, Sən bəxş Edənsən.”[4]**

﴿رَبِّ إِنِّى لِمَآ أَنزَلْتَ إِلَىَّ مِنْ خَيْرٍ فَقِيرٌ﴾

**“Ey Rəbbim, Sənin mənə nazil edəcəyin xeyirə ehtiyacım var!”[5]**

---

1 “Yusuf” surəsi, 101.
2 “ən-Nəml” surəsi, 19.
3 “əl-Kəhf” surəsi, 10.
4 “Ali İmran” surəsi, 8.
5 “əl-Qəsəs” surəsi, 24.

((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الثَّبَاتَ فِي الأَمْرِ وَالْعَزِيمَةَ عَلَى الرُّشْدِ، وَأَسْأَلُكَ مُوجِبَاتِ رَحْمَتِكَ وَعَزَائِمَ مَغْفِرَتِكَ، وَأَسْأَلُكَ شُكْرَ نِعْمَتِكَ وَحُسْنَ عِبَادَتِكَ، وَأَسْأَلُكَ قَلْبًا سَلِيمًا وَلِسَانًا صَادِقًا، وَأَسْأَلُكَ مِنْ خَيْرِ مَا تَعْلَمُ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا تَعْلَمُ، وَأَسْتَغْفِرُكَ لِمَا تَعْلَمُ، إِنَّكَ أَنْتَ عَلامُ الْغُيُوبِ))

"Allahım, Səndən dində sabit qalmağımı və doğruluğa can atmağımı, Sənin rəhmətinə qovuşduran və məğfirətinə yetişdirən əməlləri yerinə yetirməyi, Sənin nemətlərinə şükür etməyi və Sənə gözəl şəkildə ibadət etməyi, habelə salamat qəlb və düzdanışan dil diləyirəm. Bildiyin hər bir xeyiri Səndən diləyir, bildiyin hər bir şərdən Sənə sığınır və bildiyin günahlarıma görə Səndən bağışlanma diləyirəm. Heç şübhəsiz ki, Sən qeyblərdə olanları Bilənsən."[1]

((اللَّهُمَّ لَكَ أَسْلَمْتُ، وَبِكَ آمَنْتُ، وَعَلَيْكَ تَوَكَّلْتُ، وَإِلَيْكَ أَنَبْتُ، وَبِكَ خَاصَمْتُ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِعِزَّتِكَ لاَ إِلَهَ إِلاَّ أَنْتَ أَنَّ تُضِلَّنِي، أَنْتَ الْحَيُّ الَّذِي لاَ يَمُوتُ، وَالْجِنُّ وَالإِنْسُ يَمُوتُونَ))

"Allahım, Sənə təslim oldum, Sənə iman gətirdim, Sənə təvəkkül etdim, Sənə qayıtdım, Sənin Sözünü hüccət gətirdim. Allahım, azğınlığa düşməkdən Sənin izzətinə sığınıram. Səndən başqa məbud yoxdur, Sən ölməyən əbədi yaşayansan – cinlər və insanlar isə öləndir."[2]

((اللَّهُمَّ أَصْلِحْ لِي دِينِيَ الَّذِي هُوَ عِصْمَةُ أَمْرِي، وَأَصْلِحْ لِي دُنْيَايَ الَّتِي فِيهَا مَعَاشِي، وَأَصْلِحْ لِي آخِرَتِيَ الَّتِي إِلَيْهَا مَعَادِي، وَاجْعَلِ الْحَيَاةَ زِيَادَةً لِي فِي كُلِّ خَيْرٍ، وَاجْعَلِ الْمَوْتَ فِيهَا رَاحَةً لِي مِنْ كُلِّ شَرٍّ))

---

[1] Təbərani, "Mocəm əl-Kəbir", 7/335-336; "Silsilə əl-Əhadis əs-Səhihə", 3228.
[2] "Səhih Muslim", 6837.

“Allahım, ismətli olan dinimi, yaşadığım dünyamı və qayıdacaq axirətimi islah et! Xeyirli işlər üçün ömrümü artır, ölümümü isə şər əməllərdən qurtarmaq üçün rahatlıq vasitəsi et!”[1]

((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْهُدَى، وَالتُّقَى، وَالْعَفَافَ، وَالْغِنَى))

“Allahım, Səndən hidayət, təqva, iffətli və qane olan olmağımı diləyirəm.[2]

((اللهُمَّ يَا مُقَلِّبَ الْقُلُوبِ، ثَبِّتْ قُلُوبَنَا عَلَى دِينِكَ))

“Ey qəlbləri döndərən Allahım, qəlbimizi dinin üzərində sabit et!”[3]

((اللهُمَّ يَا مُصَرِّفَ الْقُلُوبِ، صَرِّفْ قُلُوبَنَا عَلَى طَاعَتِكَ))

“Ey qəlbləri yönəldən Allahım, qəlbimizi Öz itaətinə yönəlt.”[4]

((اللَّهُمَّ أَحْسِنْ عَاقِبَتَنَا فِي الأُمُورِ كُلِّهَا، وَأَجِرْنَا مِنْ خِزْيِ الدُّنْيَا، وَعَذَابِ الآخِرَةِ))

“Allahım, bütün işlərdə aqibətimizi yaxşılaşdır, dünya rüsvayçılığından və axirət əzabından bizi qoru!”[5]

((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ فِعْلَ الخَيْرَاتِ وَتَرْكَ المُنْكَرَاتِ وَحُبَّ المَسَاكِينِ وَأَنْ تَغْفِرَ لِي وَتَرْحَمْنِي وَإِذَا أَرَدْتَ فِتْنَةَ قَوْمٍ فَتَوَفَّنِي غَيْرَ مَفْتُونٍ، وَأَسْأَلُكَ حُبَّكَ وَحُبَّ مَنْ يُحِبُّكَ وَحُبَّ عَمَلٍ يُقَرِّبُنِي إِلَى حُبِّكَ))

---

[1] “Səhih Muslim”, 6841.
[2] “Səhih Muslim”, 6842.
[3] “Sunən ət-Tirmizi”, 3517; “Silsilə əl-Əhadis əs-Səhihə”, 2091.
[4] “Səhih Muslim”, 6692.
[5] “Musnəd İmam Əhməd”, 4/181.

“Allahım, xeyirxahlıq etməyi, pis əməllərdən çəkinməyi, miskinləri sevməyi, məni bağışlamağını, mənə rəhm etməyini və hər hansı qövmə bəla göndərmək istədikdə bəla mənə toxunmazdan əvvəl canımı almağını Səndən istəyirəm. Sənin məhəbbətini və Səni sevənin məhəbbətini qazanmağımı, Sənin məhəbbətinə yaxınlaşdıracaq hər bir əməli sevməyimi Səndən istəyirəm.”[1]

((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنَ الْخَيْرِ كُلِّهِ عَاجِلِهِ وَآجِلِهِ، مَا عَلِمْتُ مِنْهُ وَمَا لَمْ أَعْلَمْ، وَأَعُوذُ بِكَ مِنَ الشَّرِّ كُلِّهِ عَاجِلِهِ وَآجِلِهِ، مَا عَلِمْتُ مِنْهُ وَمَا لَمْ أَعْلَمْ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنَ الْخَيْرِ مَا سَأَلَكَ عَبْدُكَ وَنَبِيُّكَ، وَأَعُوذُ بِكَ مِنَ الشَّرِّ مَا عَاذَ بِهِ عَبْدُكَ وَنَبِيُّكَ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْجَنَّةَ وَمَا قَرَّبَ إِلَيْهَا مِنْ قَوْلٍ وَعَمَلٍ، وَأَعُوذُ بِكَ مِنَ النَّارِ وَمَا قَرَّبَ إِلَيْهَا مِنْ قَوْلٍ وَعَمَلٍ، وَأَسْأَلُكَ أَنْ تَجْعَلَ كُلَّ قَضَاءٍ قَضَيْتَهُ لِي خَيْرًا))

“Allahım, bildiyim və bilmədiyim, tez və gec olan bütün xeyirləri Səndən diləyir və bildiyim və bilmədiyim, tez və gec olan bütün şər əməllərdən Sənə sığınıram. Allahım, qulun və peyğəmbərinin *Muhəmməd* ﷺ Səndən istədiklərini Səndən istəyir və sığındığı şər əməllərdən Sənə sığınıram. Allahım, Cənnəti və ona yaxınlaşdıran hər bir söz və əməli Səndən istəyir, Cəhənnəmdən və ona yaxınlaşdıran hər bir söz və əməldən Sənə sığınıram. Səndən mənim üçün yazdığın hər bir hökmün xeyirli olmasını istəyirəm.”[2]

((اللَّهُمَّ احْفَظْنِي بِالإِسْلاَمِ قَائِمًا، وَاحْفَظْنِي بِالإِسْلاَمِ قَاعِدًا، وَاحْفَظْنِي بِالإِسْلاَمِ رَاقِدًا، وَلاَ تُشْمِتْ بِي عَدُوًّا وَلاَ حَاسِدًا، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنْ كُلِّ خَيْرٍ خَزَائِنُهُ بِيَدِكَ، وَأَعُوذُ بِكَ مِنْ كُلِّ شَرٍّ خَزَائِنُهُ بِيَدِكَ))

---

[1] “Musnəd İmam Əhməd”, 5/243.

[2] “Səhih İbn Macə”, 2/327.

“Allahım, məni həm ayaq üstə olduğum zaman, həm oturduğum, həm də uzandığım halda İslam dini ilə mühafizə et. Düşməni və paxılı mənə qarşı sevindirmə. Allahım, xəzinəsi Sənin Əlində olan xeyri Səndən istəyir və xəzinəsi Sənin əlində olan şərdən Sənə sığınıram!”[1]

((اللهُمَّ انْفَعْنِي بِمَا عَلَّمْتَنِي، وَعَلِّمْنِي مَا يَنْفَعُنِي، وَزِدْنِي عِلْمًا))

“Allahım, mənə öyrətdiklərini mənim üçün faydalı et, fayda verəcək şeyləri mənə öyrət və elmimi artır!”[2]

((اللَّهُمَّ أَحْسَنْتَ خَلْقِي فَأَحْسِنْ خُلُقِي))

“Allahım, məni gözəl biçimdə yaratdın, əxlaqımı da gözəlləşdir!”[3]

((اللَّهُمَّ رَبَّ جِبْرَائِيلَ وَمِيكَائِيلَ وَإِسْرَافِيلَ فَاطِرَ السَّمَوَاتِ وَالأَرْضِ عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ أَنْتَ تَحْكُمُ بَيْنَ عِبَادِكَ فِيمَا كَانُوا فِيهِ يَخْتَلِفُونَ، اهْدِنِي لِمَا اخْتُلِفَ فِيهِ مِنَ الْحَقِّ بِإِذْنِكَ إِنَّكَ تَهْدِي مَنْ تَشَاءُ إِلَى صِرَاطٍ مُسْتَقِيمٍ))

“Cəbrailin, Mikailin və İsrafilin Rəbbi, göyləri və yeri Yaradan, qeybdə və aşkarda olanı Bilən Allahım! Qulların arasındakı ixtilafın hökmünü verən Sənsən. Elə isə, məni baş vermiş ixtilafdan Öz izninlə haqqa yönəlt. Həqiqətən, Sən istədiyini düz yola yönəldirsən!”[4]

((رَبِّ أَعِنِّي وَلاَ تُعِنْ عَلَيَّ، وَانْصُرْنِي وَلاَ تَنْصُرْ عَلَيَّ، وَامْكُرْ لِي وَلاَ تَمْكُرْ عَلَيَّ، وَاهْدِنِي وَيَسِّرِ الْهُدَى إِلَيَّ، وَانْصُرْنِي عَلَى مَنْ بَغَى عَلَيَّ، رَبِّ اجْعَلْنِي لَكَ شَكَّارًا،

---

[1] “Silsilə əl-Əhadis əs-Səhihə”, 1540.
[2] “Səhih İbn Macə”, 1/47.
[3] “İrva əl-Ğalil”, 1/115.
[4] “Sunən Əbu Davud”, 763.

لَكَ ذَكَّارًا، لَكَ رَهَّابًا، لَكَ مِطْوَاعًا، لَكَ مُخْبِتًا، إِلَيْكَ أَوَّاهًا، مُنِيبًا، رَبِّ تَقَبَّلْ تَوْبَتِي، وَاغْسِلْ حَوْبَتِي، وَأَجِبْ دَعْوَتِي، وَثَبِّتْ حُجَّتِي، وَاهْدِ قَلْبِي، وَسَدِّدْ لِسَانِي، وَاسْلُلْ سَخِيمَةَ قَلْبِي))

"Ey Rəbbim, mənə kömək et, əleyhimə olan işlərdə heç kəsə kömək etmə. Mənə qələbə bəxş et, heç kəsə mənim üzərimdə qələbə qazandırma. Mənə düşmənlərimə hiylə qurmağa kömək ol, başqasının mənə hiylə qurmasına yol vermə. Mənə hidayət ver və mənim üçün doğru yola yönəlməyi asanlaşdır. Mənə təcavüz edənə qalib gəlməyimə yardım et. Ey Rəbbim, məni yalnız Sənə şükür edən, yalnız Səni zikr edən, yalnız Səndən qorxan, yalnız Sənə itaət edən, yalnız Sənə boyun əyən, yalnız Sənə yalvaran və yalnız Sənə üz tutan bir bəndə et. Ey Rəbbim, mənim tövbəmi qəbul et, günahlarımı yu, duamı qəbul et, dəlilimi möhkəmləndir, qəlbimi haqqa yönəlt, dilimi doğruluğa öyrət və qəlbimin qara ləkəsini yox et!"[1]

((اللَّهُمَّ بِعِلْمِكَ الْغَيْبَ وَقُدْرَتِكَ عَلَى الْخَلْقِ أَحْيِنِي مَا عَلِمْتَ الْحَيَاةَ خَيْرًا لِي، وَتَوَفَّنِي إِذَا عَلِمْتَ الْوَفَاةَ خَيْرًا لِي، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ خَشْيَتَكَ فِي الْغَيْبِ وَالشَّهَادَةِ، وَأَسْأَلُكَ كَلِمَةَ الْحَقِّ فِي الرِّضَا وَالْغَضَبِ، وَأَسْأَلُكَ الْقَصْدَ فِي الْغِنَى وَالْفَقْرِ، وَأَسْأَلُكَ نَعِيمًا لاَ يَنْفَدُ، وَأَسْأَلُكَ قُرَّةَ عَيْنٍ لاَ تَنْقَطِعُ، وَأَسْأَلُكَ الرِّضَا بَعْدَ الْقَضَاءِ، وَأَسْأَلُكَ بَرْدَ الْعَيْشِ بَعْدَ الْمَوْتِ، وَأَسْأَلُكَ لَذَّةَ النَّظَرِ إِلَى وَجْهِكَ وَالشَّوْقَ إِلَى لِقَائِكَ فِي غَيْرِ ضَرَّاءَ مُضِرَّةٍ وَلاَ فِتْنَةٍ مُضِلَّةٍ، اللَّهُمَّ زَيِّنَّا بِزِينَةِ الْإِيمَانِ وَاجْعَلْنَا هُدَاةً مُهْتَدِينَ))

"Allahım, qeybi bilməyinlə və yaratma qüdrətinlə yaşamağın mənim üçün xeyirli olduğunu bildiyin qədər məni yaşat, ölümün mənim üçün daha xeyirli olduğunu bildikdə isə məni öldür. Allahım,

[1] "Sunən ət-Tirmizi", 3551; "Səhih əl-Ədəb əl-Mufrad", 517.

gizlində də, aşkarda da Səndən *layiqincə* qorxmağı diləyirəm. Səndən razılıq və qəzəb anında haqq söz *söyləməyimi* diləyirəm. Zənginlikdə də, kasıblıqda da Səndən mötədillik diləyirəm. Səndən tükənməz nemət və ardı kəsilməyən bir göz aydınlığı diləyirəm. Səndən, *başıma gələn* qəzadan sonra *ondan* razı qalmağımı və ölümdən sonra *olan* gözəl həyatı diləyirəm. Sənin Üzünə baxmağın ləzzətini, zərər verən xəstəliyə və azğınlığa aparan fitnəyə uğramadıqca Səninlə qarşılaşmaq həsrətini Səndən diləyirəm. Allahım, bizi imanın gözəlliyi ilə gözəlləşdir və bizi doğru yolda olan başçılardan et!"[1]

((اللَّهُمَّ تَوَفَّنِي مَعَ الأَبْرَارِ، وَلاَ تُخَلِّفْنِي فِي الأَشْرَارِ، وَأَلْحِقْنِي بِالأَخْيَارِ))

"Allahım, mənim canımı itaətkarlarla birlikdə al, məni pis insanların arasında buraxma və məni xeyirxah insanlara qovuşdur!"[2]

((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ إِيمَاناً لا يَرْتَدُّ، وَنَعِيماً لا يَنْفَدُ، وَمُرَافَقَةَ مُحمدٍ –ﷺ– فِي أَعَلى جَنَّةِ الخُلْدِ))

"Allahım, Səndən dəyişməyən iman, tükənməyən nemətlər və Muhəmməd sallallahu aleyhi va səlləm ilə birlikdə ən uca cənnətdə olmağımı diləyirəm."[3]

---

1 "Musnəd İmam Əhməd", 4/364; "Səhih ən-Nəsai", 1/281.
2 "əl-Ədəb əl-Mufrad", 629.
3 "Musnəd İmam Əhməd", 1/7.

# Son söz

Əziz müsəlmanlar! Bilin ki, Uca Allah yalnız sevdiyi bəndəsinə daim Onu zikr etməyi, Ona şükr etməyi və Ona gözəl tərzdə ibadət etməyi nəsib edir. Müsəlmanlar özlərini hesaba çəksələr, görərlər ki, fani dünya onların bir qisminin başını qatmış, mal-dövlətin çoxluğu onların bir çoxlarını Allahı zikr etməkdən, Ona şükr etməkdən və Ona gözəl tərzdə ibadət etməkdən yayındırmışdır. Onlardan bəziləri səhər-axşam zikrlərini buraxır, bəziləri namazdan sonrakı zikrləri yerinə yetirmir, hətta bəzilərinin yemək yeyəndə, yaxud su içəndə "bismilləh!" demək belə yadına düşmür, daha dəqiq desək, etdiyi günahların əvəzi olaraq, Allah onu bu gözəl ibadətləri yerinə yetirməyə müvəffəq etmir. Bilin ki, müvəffəqiyyət hər şeyə qadir olan Allahın Əlindədir. Allahdan diləyimiz budur ki, Öz Peyğəmbərini ﷺ hər zaman və hər bir halda Rəbbini zikr etməyə, Ona şükür etməyə və Ona gözəl tərzdə ibadət etməyə müvəffəq etdiyi kimi, bizi də daim Rəbbimizi zikr etməyə, Ona şükür etməyə və Ona gözəl tərzdə ibadət etməyə müvəffəq etsin. Kim Allahın sevdiyi və razı qaldığı əməli yerinə yetirməyə müvəffəq olmaq istəyirsə, onda Rəsulullahın ﷺ öz səhabəsi Muaz ibn Cəbələ رضي الله عنه verdiyi nəsihəti yerinə yetirsin. Rəsulullah ﷺ ona belə buyurmuşdur: **"Ey Muaz, sənə tövsiyəm budur ki, hər namazın sonunda[1] bu duanı edəsən:**

(( اللَّهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ، وَشُكْرِكَ، وَحُسْنِ عِبَادَتِكَ ))

**"Allahım, Səni zikr etmək, Sənə şükür etmək və Sənə gözəl tərzdə ibadət etmək üçün mənə yardım et!"[2]**

Bir qədər əvvəl qeyd etdik ki, uca Allah yalnız sevdiyi bəndəsinə daim Onu zikr etməyi, Ona şükr etməyi və Ona gözəl tərzdə ibadət etməyi nəsib edir. Bu isə böyük nemətdir. Rəvayət edilir ki, bir gün

---

[1] Yəni, təşəhhüdü bitirdikdən sonra və salam verməmişdən əvvəl.

[2] "Sunən Əbu Davud", 1522; "Səhih əl-Cami", 7969.

Peyğəmbər ﷺ səhabələrinə: **"Allah sevdiyi bəndəsini bal kimi şirin edir"**– deyir. Səhabələr: "Ya Rəsulullah, bal kimi şirin etmək nə deməkdir?"– deyə soruşduqda, Peyğəmbər ﷺ belə buyurur: **"Onu ömrü boyu yaxşı işlər görməyə müvəffəq edir. Belə edir ki, ətrafındakılar ondan razı qalsın."**[1]

Deməl, yaxşı işlər görməyə müvəffəq olmaq üçün Allahın sevgisini qazanmaq lazımdır. Yaxşı, bəs nə edək ki, Allah bizi sevsin? Aşağıda zikr edilən ayə və hədislərə diqqət edin!

**"Yaxşılıq edin! Həqiqətən, Allah yaxşılıq edənləri sevir."[2];**

**"Həqiqətən, Allah müttəqiləri[3] sevir."[4];**

**"Həqiqətən, Allah tövbə edənləri də sevir, pak olanları da."[5];**

**«De: "Əgər siz Allahı sevirsinizsə, mənim yolumla gedin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın."»[6];**

**"Allah səbir edənləri sevir."[7];**

**"Həqiqətən, Allah təvəkkül edənləri sevir."[8];**

**"Həqiqətən, Allah ədalətli olanları sevir."[9];**

**"Ey iman gətirənlər! Sizlərdən kim dinindən dönərsə,** ***bilsin ki,*** **Allah** ***onun əvəzinə*** **Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan bir camaat gətirər."[10];**

---

[1] "Musnəd İmam Əhməd", 5/224; "Silsilə əl-Əhadis əs-Səhihə", 1114.

[2] "əl-Bəqərə" surəsi, 195.

[3] Müttəqi, yəni təqvalı insan. Təqvaya dair ən müfəssəl təriflərdən biri Talq ibn Həbib əl-Bəsrin ﵀ verdiyi tərifdir. O demişdir: "Təqva, Quran və Sünnəyə uyğun olaraq, savabını da Allahdan umaraq Allaha itaət etmək, həmçinin, Quran və Sünnəyə uyğun şəkildə Allahın əzabından qorxaraq Allaha asi olan işlərdən çəkinməkdir". ("Musənnəf ibn Əbu Şeybə", 30993).

[4] "ət-Tovbə" surəsi, 4.

[5] "əl-Bəqərə" surəsi, 222.

[6] "Ali-İmran" surəsi, 31.

[7] "Ali-İmran" surəsi, 146.

[8] "Ali-İmran" surəsi, 159.

[9] "əl-Maidə" surəsi, 42.

[10] "əl-Maidə" surəsi, 54.

**"Kim Mənim dostumla düşmənçilik edərsə, Mən ona hərb elan edərəm. Qulumun Mənə sevimli olan və sayəsində Mənə yaxınlaşdığı ən gözəl əməl ona vacib buyurduğum əməllərdir. Qulum nafilə ibadətləri yerinə yetirməklə Mənə o qədər yaxınlaşar ki, Mən onu sevərəm..."[1];**

**"Allahın ən çox sevdiyi bəndə insanlara fayda verən kimsələrdir. Sənin müsəlmanı sevindirməyin, onun sıxıntısını aradan qaldırmağın, onun qarnını doydurmağın, onun borcunu ödəməyə kömək etməyin Allah üçün ən sevimli əməllərdəndir. Müsəlman qardaşıma kömək etmək üçün yola çıxmaq mənim üçün bir ay bu məsciddə[2] etikaf etməkdən daha sevimlidir. Kim öz qəzəbini boğarsa, Allah onun Qiyamət günü eyibini örtər. Kim öz qəzəbini gizlədərsə, Allah onun qəlbini riza ilə doldurar. Kim müsəlman qardaşına kömək etmək üçün yola çıxar və bu yolda sabit qalarsa, qədəmlərin sabit durmadığı gündə – Qiyamət günündə Allah onun qədəmlərini sabit edər. Biləsiniz, pis əxlaq, sirkə balı korladığı kimi, əməlləri korlayır."[3];**

**"Allahın ən çox sevdiyi insanlar əxlaqı ən gözəl olanlarıdır!"[4];**

**"Əgər siz Allahın və Rəsulunun ﷺ sizi sevməsini istəyirsinizsə, düz danışın, əmanəti yiyəsinə qaytarın və yanınızdakılara yaxşılıq edin!"[5];**

**"Allah üçün güclü mömin zəif mömindən daha xeyirli və daha sevimlidir. Lakin hər birində xeyir var."[6];**

**"Dünyaya könül bağlama ki, Allah səni sevsin."[7];**

---

[1] "Səhih əl-Buxari", 6502.

[2] Burada Mədinə şəhərindəki Peyğəmbər ﷺ məscidi qəsd edilir.

[3] Təbərani, "Mocəm əl-Kəbir", 3/209/2; "Silsilə əl-Əhadis əs-Səhihə", 906.

[4] Munziri, "Tərğib ət-Tərhib", 3/259; "Silsilə əl-Əhadis əs-Səhihə", 432.

[5] "Silsilə əl-Əhadis əs-Səhihə", 2998

[6] "Səhih Muslim", 2664.

[7] "Sunən İbn Macə", 4102; "Silsilə əl-Əhadis əs-Səhihə", 944.

Rəvayət edilir ki, bir dəfə Peyğəmbər ﷺ bir nəfəri qoşuna başçı təyin edib döyüşə göndərdi. Həmin adam dostlarına qıldırdığı hər namazı hər dəfə **“əl-İxlas” surəsi** ilə bitirərdi. Səhabələr geri döndükdə bu haqda Peyğəmbərə ﷺ xəbər verdilər. Peyğəmbər ﷺ dedi: **“Nə üçün belə etdiyini ondan soruşun”.** Onlar bunun səbəbini ondan soruşduqda, o dedi: “Çünki bu surə ər-Rəhmanı vəsf edir, mən də onu oxumağı çox sevirəm”. Peyğəmbər ﷺ buyurdu: **“Ona deyin ki, Allah da onu sevir.”[1];**

**“Allah səxavətlidir və səxavətli olanları sevir.”[2];**

**“Allahın ən çox sevdiyi insanlar, öz əhli-əyallarına yaxşılıq edənləridir.”[3]**

**“Allah, Ondan qorxan, *aza* qane olan və xəlvətə çəkilib *öz işi ilə məşğul olan* qulunu sevir.”[4];**

**“Allah, həyalı olub insanlara əl açmayanları sevir.”[5];**

**“Kim Allahla qarşılaşmaq istəyirsə, Allah da onunla qarşılaşmaq istəyir; kim də Allahla qarşılaşmaq istəmirsə, Allah da onunla qarşılaşmaq istəmir.”[6];**

**“Bir kişi başqa bir kənddə olan qardaşını ziyarət etdi. Allah onun keçəcəyi yolunun üstünə onu gözətləmək üçün bir mələk göndərdi. Mələk ondan: “Hara gedirsən?”– deyə soruşdu. Adam: “Bu kənddəki qardaşımı *ziyarət etməyə gedirəm*”– dedi. Mələk soruşdu: “Sənin ona verəcəyinmi, yaxud ondan alacağınmı var?” O dedi: “Xeyr, mən onu Allah xatirinə sevirəm”. Mələk dedi: “Mən Allahın sənin yanına göndərdiyi elçisiyəm. Sən onu sevdiyin kimi, Allah da səni sevir.”[7]**

---

[1] “Səhih əl-Buxari”, 7375.

[2] “Mustədrək əl-Hakim”, 1/48; “Silsilə əl-Əhadis əs-Səhihə”, 1378.

[3] “Səhih əl-Cami”, 172.

[4] “Səhih Muslim”, 2965.

[5] “Səhih əl-Cami”, 1711.

[6] “Səhih əl-Buxari”, 6507.

[7] “Səhih Muslim”, 6714.

**“Allah, birinizin mal satanda, yaxud onu alanda, həmçinin borcu qaytaranda güzəşt edən və asanlaşdıran kimsəni sevir.”[1];**

**“İmam namazda “ğayril-məğdubi aleyhim vələddalin” deyəndə “amin” deyin ki, Allah sizi sevsin.”[2]**

Əziz müsəlman!

Əgər Allah sənə gündəlik olaraq Quran oxumağı nəsib edirsə, demək səninlə danışmaq istəyir;

Əgər Allah sənə gündəlik olaraq zikr etməyi nəsib edirsə, demək səni zikr etmək istəyir;

Əgər Allah sənə gündəlik olaraq dua etməyi nəsib edirsə, demək sənin duanı qəbul etmək istəyir;

Əgər Allah sənə gündəlik olaraq Ona və Onun Rəsuluna ﷺ itaət etməyi nəsib edirsə, demək səni Özünə dost seçmək istəyir.

Sonda hamımız üçün Allaha dua edib deyirik:

((اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ فِعْلَ الْخَيْرَاتِ، وَتَرْكَ الْمُنْكَرَاتِ، وَحُبَّ الْمَسَاكِينِ، وَأَنْ تَغْفِرَ لَنَا وَتَرْحَمَنَا، وَإِذَا أَرَدْتَ فِتْنَةَ قَوْمٍ فَتَوَفَّنَا غَيْرَ مَفْتُونٍ، وَنَسْأَلُكَ حُبَّكَ، وَحُبَّ مَنْ يُحِبُّكَ، وَحُبَّ عَمَلٍ يُقَرِّبُنَا إِلَى حُبِّكَ))

**“Allahım, Səndən yaxşı işlər görməyimizi, pis əməllərdən çəkinməyimizi, kasıbları sevməyimizi, bizi bağışlamağını, bizə rəhm etməyini və hər hansı qövmə bəla göndərmək istədikdə, bəla bizə toxunmazdan əvvəl canımızı almağını diləyirik. Sənin məhəbbətini və Səni sevən kimsələrin məhəbbətini qazanmağımızı, habelə, Sənin məhəbbətinə yaxınlaşdıracaq hər bir əməli sevməyimizi Səndən diləyirik.”[3]**

---

[1] “Sunən ət-Tirmizi”, 2/273; “Silsilə əl-Əhadis əs-Səhihə”, 899.

[2] “Sunən Əbu Davud”, 972; “Səhih əl-Cami”, 672.

[3] “Musnəd İmam Əhməd”, 5/243.